QARABAĞ AZƏRBAYCANDIR!

## İnkişafı şərtləndirən GÜCLÜ İQTİSADİ BAZA VAR



5

# AZƏRBAYCANIN SOSİAL DÖVLƏT MODELİ



2

İLHAM ƏLİYEV: "Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik"



SƏS

№ 006 (6689) 13 yanvar 2023-cü il. Qiymәti 60 qәpik

# Postmüharibə və postpandemiya dövrünün AZƏRBAYCANI



8

### Mürəkkəb beynəlxalq şəraitdə: sabitlik fenomeni, inkişaf modeli




### MEDİA-nın 2022-ci ilin yekunlarına dair hesabat konfransı keçirilib




4

### MEDİA iki il ərzində hansı uğurlara imza atıb?

6

## Paşinyanın sülhməramlı axtarışı



7

## Dünya Səhiyyə Təşkilatından xəbərdarlıq: Yeni virus gəlir...



7

# AZƏRBAYCANIN SOSİAL DÖVLƏT MODELİ

## İLHAM ƏLİYEV: "Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik"

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial islahatlar əhalinin bu sahədə müdafiəsinin gücləndirilməsi və onun rifahının yaxşılaşdırılması məqsədi ilə nəzərdə tutulan tədbirləri uğurla reallaşdırır. Xüsusilə də, son illərdə dünyada baş verən bahalaşma, qiymət artımlarının qlobal iqtisadiyyata fəal şəkildə qoşulmuş Azərbaycana da təsirsiz ötüşmədiyi nəzərə alınmaqla respublika əhalisinin sosial müdafiəsinin gücləndirilməsi və rifahının bu təsirlərdən qorunması üçün zəruri və məqsədyönlü addımlar atılır. Bu sosial islahatlar Zəfər dövrünü yaşayan qalib Azərbaycanda Böyük Qayıdış Proqramının reallaşdırıldığı bir dövrdə həyata keçirilir. Elə bu günlərdə - yanvarın 12-də Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində dövlət başçısı keçirilən sosial siyasət sahəsində görülən işlərdən danışaraq bildirib ki, Azərbaycan sosial dövlət olaraq öz vətəndaşının sosial rifahının yaxşılaşdırılması üçün uğurlu addımlar atır.





### AZƏRBAYCAN SOSİAL DÖVLƏTDİR VƏ BİZ BUNU SÖZLƏ YOX, ƏMƏLİMİZLƏ TƏSDİQLƏYİRİK

Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində sosial sahənin çoxşaxəli olduğunu qeyd edən dövlətimizin başçısı deyib ki, buraya özünüməşğulluq proqramını da əlavə etmək olar: ”Bir neçə il ərzində belə bir təşəbbüs irəli sürüldü. Çox böyük maraq doğurdu və bu gün 60 min ailə özünüməşğulluq proqramına cəlb edilib. Hətta biz beynəlxalq maliyyə institutlarını da bu proqrama cəlb etmişik. Bu, həm sosial, həm iqtisadi, həm iş yerlərini, yəni, bütün bu sahələri əhatə edən bir sahədir. Ona görə bu il də istisna olmayacaq. Çünki bir daha demək istəyirəm, Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik. İmkan daxilində bu il də bu proqramlar icra ediləcək”. İkinci Qarabağ müharibəsində əlil olmuş 379 hərbçi ən müasir protezlərlə təmin edildiyini söyləyən dövlət başçısı söyləyib ki, cəmi iki il keçməsinə baxmayaraq, İkinci Qarabağ müharibəsinə aid olan bu proqram tam yerinə yetirilib. Yəni, biz öz sağlamlığını itirmiş soydaşlarımıza maksimum dərəcədə kömək göstərməyə çalışırıq. Əlbəttə ki, bu, yüksək texnologiyalı protezlər olduğu üçün onlar vaxtaşırı dəyişdirilməlidir. Bütün bu proqramlar da gündəlikdədir.



### MƏQSƏDİMİZ ÖLKƏNİ GÜCLƏNDİRMƏK VƏ HƏR BİR VƏTƏNDAŞIN HƏYATINI DAHA DA YAXŞI ETMƏKDİR

Bəli, sözü ilə əməlləri üst-üstə düşən Azərbaycan Prezidenti İlham Əliyev iqtisadi və sosial sahə həmişə paralel getməlidir: ”Ona görə də, hələlik, limitsiz xarici kreditlərin cəlb edilməsinə ehtiyac yoxdur. O ölkələrdə ki, ancaq iqtisadi sahəyə diqqət verilir və sosial sahə kənarda qalır, orada insanlar iqtisadi islahatlardan çox böyük əziyyət çəkirlər. Bizim isə məqsədimiz ölkəni gücləndirmək və hər bir vətəndaşın həyatını daha da yaxşı etməkdir”. Dövlət başçısı müsahibəsində sosial rifah sahəsində atılan praktiki addımlardan danışarkən deyib ki, minimum əməkhaqqının 15 faiz artması inflyasiyanın fəsadlarının yumşaldılmasına hesablanıb: ”Bu, bizi qane edir? Əlbəttə ki, yox. Amma biz imkan daxilində öz addımlarımızı atırıq. Çünki bir daha demək istəyirəm, bizim əsas xərclər istiqaməti Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək və ordu potensialımızı gücləndirməkdir. Bu iki əsas prioritet bizim üçün uzun illər prioritet kimi qalacaq”. Dövlətimizin başçısı qeyd edib ki, pensiyaçıların sosial təminatının yaxşılaşdırılması üçün minimum pensiya da 16,7 faiz artırıldı, 280 manata çatdı və bu proses davam etdiriləcək. Bu, müntəzəm olaraq atılan addımlardır və iqtisadi imkanlarımız artdıqca, gələcəkdə də buna oxşar addımlar atılacaq. Azərbaycan Prezidenti, həmçinin ünvanlı sosial yardımın verilməsi ilə bağlı söyləyib ki, çox böyük şəffaflaşdırma işi aparılıb: ”Əvvəlki dövrlərdə bu sahədə çox böyük pozuntulara yol verilmişdi. Ehtiyacı olmayan insanlara sosial yardım verilirdi və əlbəttə ki, bunun arxasında tamənna dayanırdı. Ehtiyacı olan insanların isə buna əli çatmırdı. Ona görə bu sahədə çox geniş təftiş işi aparılıb”. ”Bu gün 60 minə yaxın ailə dövlətdən ünvanlı sosial yardım alır və ildən-ilə bu yardımın məbləği artır. Yəni, bu il bir ailəyə düşən müavinət təqribən 460 manat səviyyəsindədir və əlbəttə ki, il ərzində artacaq, o cümlədən orta aylıq əməkhaqqı da. Biz gözləyirik ki, bu il Azərbaycanda orta aylıq əməkhaqqı 900 manatdan çox olacaq. Beləliklə, sosial sahədə bu addımları ataraq həm ehtiyacı olan insanlara arxa-dayaq oluruq, eyni zamanda, biz öz siyasətimizə sadiqliyimizi göstəririk”, - deyə dövlətimizin başçısı vurğulayıb.

### BU GÜNƏDƏK 13 MİN ŞƏHİD AİLƏSİ VƏ MÜHARİBƏ ƏLİLİ DÖVLƏT DƏSTƏYİNDƏN FAYDALANIB

Qeyd edək ki, İkinci Vətən müharibəsindən sonra dövlətimizin qarşısında duran ən mühüm sosial məsələlərdən birinin şəhid ailələrinin və qəhrəman döyüşçülərimizin qayğıları daim diqqət mərkəzində olub, bu istiqamətdə dövlət başçısının sərəncamları əsasında müvafiq tədbirlər həyata keçirilib. Belə ki, ”Şəhid ailələrinə və Vətən müharibəsi iştirakçılarına dövlət qayğısının ən bariz örnəyi Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli Fərmanı ilə ”YAŞAT” Fondunun yaradılması, 2021-ci il 30 yanvar tarixli 24 saylı Qərarına əsasən Vətən müharibəsi iştirakçılarına ”Müharibə veteranı” adının verilməsi, şəhid ailələri və müharibə əlillərinə dövlət tərəfindən mənzillər verilməsi, məhz bu kontekstdə Azərbaycan dövlətinin verdiyi qərarlar bütün dünya üçün nümunədir. Elə 12 min 200-dən çox şəhid ailəsinə dövlət tərəfindən 11 min manat ödənişin edilməsi, şəhid ailələrinin müavinətlərinin 242 manatdan 300 manata artırılması, Əfqanıstanda həlak olanların ailələrinə verilən müavinətin 220 manatdan 300 manata qaldırılması, minimum əməkhaqqını 38 faiz artırılması, 130 manatdan 180 manata çatdırılması, həmçinin, minimum pensiyaların məbləğinin də təxminən 38 faiz - 116 manatdan 160 manata qədər artırılması, eləcə də təqribən 100 minə yaxın tələbənin təqaüdünün qaldırılması cənab Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində insan amilinin olduğunu bir daha sübut etmiş olur. Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyev 2023-cü il yanvar ayının 5-də ”Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında” sərəncamı əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində əlavə tədbirləri özündə ehtiva edir. Belə ki, bir çox kateqoriya üzrə əmək haqqının artırılması, xüsusilə də minimum əmək haqqının 300 manatdan 345 manata, minimum pensiyanın 240 manatdan 280 manata çatdırılması nəzərdə tutulur, eyni zamanda, müavinət və təqaüdlər də artırılacaq. Rəsmi məlumata görə, pensiya və əməkhaqqı artımı 800 min nəfəri əhatə edəcək. Son sərəncam sosial təminata daha çox ehtiyacı olan vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi baxımdan əhəmiyyət daşıyır. Ümumilikdə, son 4 ildə sosial sahədə minimum əməkhaqqı 2,7 dəfə artırılaraq 130 manatdan 345 manata, minimum pensiya 2,5 dəfə artırılaraq 110 manatdan 280 manata çatdırılıb. Bu il sosial ödənişlərdə yeni artımlar üçün əlavə 750 milyon manat vəsait nəzərdə tutulub.

Görülən işlər bir daha onu sübut edir ki, insan amili, vətəndaşların sosial rifahının yüksəldilməsi dövlətimizin başçısının həyat amalıdır, ən başlıca vəzifə kimi qarşıya qoyulub və bu əməli fəaliyyətdə qəbul olunmuş qərar və sərəncamlarda öz əksini tapır. Prezident İlham Əliyevin imzaladığı sərəncamlar dövlət başçısının daim vətəndaşları düşündüyünü və onların sosial rifahının yaxşılaşdırılması istiqamətində addımlar atdığını bir daha təsdiqləyir. Post-müharibə və pandemiya dövründə sosial sahəyə bu qədər önəmin verilməsi bir daha göstərir ki, Prezidentin siyasətinin mərkəzində Azərbaycan vətəndaşlarının rifahı dayanır. Göründüyü kimi, görülən bu işlərin nəticəsidir ki, Azərbaycanda pensiya təminatı və digər sosial göstəricilər bir sıra sahələrdə MDB ölkələri arasında ilk pillələrdə qərarlaşıb.

Bir sözlə, bütün bu uğurlu işlər Prezident İlham Əliyevin birbaşa mükəmməl daxili siyasətinin məntiqi nəticəsidir və 2023-cü il sosial islahatların həyata keçirildiyi növbəti illərdən biri olacaqdır.

**RƏFİQƏ KAMALQIZI**

# Dünyanın nüfuzlu KİV-ləri Azərbaycan Prezidentinin yerli telekanallara müsahibəsini geniş işıqlandırıb




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsi Gürcüstan mətbuatının diqqət mərkəzində olub. Gürcüstanın nüfuzlu KİV-ləri bu barədə geniş yazılar dərc ediblər. Belə ki, "dalgatv.ge", "24news.ge", "newsday.g"e, "aktual.ge" informasiya portalları Azərbaycan Prezidentinin çıxışından materiallar yayıblar.**

Azərbaycan, rus və gürcü dillərində, AZƏRTAC-a istinadla yayılan məlumatlarda dövlətimizin başçısının Azərbaycan Silahlı Qüvvələrinin müdafiə qabiliyyətinin artırılması, sərhədlərin delimitasiyasının vacibliyi, Zəngəzur dəhlizinin əhəmiyyəti və digər məsələlər barədə fikirləri əksini tapıb.

Moldovanın aparıcı KİV-ləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsini geniş işıqlandırıb. "Point", "Noi", "Dosarmedia", "Timpul" və digər xəbər portallarında rumın və rus dillərində dərc olunan məqalələrdə Prezident İlham Əliyevin Ermənistanla bağlı fikirləri xüsusi diqqətdə saxlanılıb.

Moldova mətbuatında dərc edilən məlumatlarda dövlətimizin başçısının gənclərimizin Laçın-Xankəndi yolunda aksiyası, Azərbaycan Silahlı Qüvvələrinin müdafiə qabiliyyətinin artırılması, sərhədlərin delimitasiyasının vacibliyi, Zəngəzur dəhlizinin əhəmiyyəti və digər məsələlər barədə fikirləri əksini tapıb.

Bundan başqa Yaponiyanın "ajmedia.jp" portalı da Azərbaycan Prezidenti İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsini geniş işıqlandırıb.

Belə ki, yapon və ingilis dillərində yayımlanan məlumatlarda Azərbaycan Prezidentinin ötən il ölkəmizin sosial-iqtisadi sahədə əldə etdiyi uğurlar, o cümlədən Avropanın enerji təminatında artan rolu, bu istiqamətdə imzalanmış yeni sənədlərin əhəmiyyəti, həmçinin regionda baş verən proseslər, Azərbaycanın nüfuzunun artmasına mühüm təsir göstərəcək yeni layihələr barədə fikirləri əksini tapıb. Yazılarda Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində aparılan danışıqlar və regionun iqtisadi inkişafına təsir göstərəcək Zəngilan dəhlizi barədə dövlətimizin başçısının fikirlərinə də geniş yer verilib. Bununla yanaşı, azərbaycanlı ekofəalların Laçın-Xankəndi yolunda davam edən etiraz aksiyasının əsas mahiyyəti barədə obyektiv informasiya yapon ictimaiyyətinə təqdim edilib.

Portalda yayımlanan məlumatlarda Prezident İlham Əliyevin Azərbaycan Ordusunun qüdrətini daha da artırması, ölkəmizin müdafiə sənayesini inkişaf etdirməsi barədə fikirlərinə də geniş yer verilib. Qeyd edilib ki, Ermənistana verilən heç bir müasir silah Azərbaycan Ordusunun qüdrəti qarşısında davam gətirə bilməz.

Məlumatlarda, eyni zamanda, dövlətimizin başçısının Qərbi azərbaycanlıların hüquqları mövzusunun haqlı olaraq beynəlxalq arenaya çıxarılması barədə fikirləri də oxucuların diqqətinə çatdırılıb. Eyni zamanda Rusiyanın federal mətbuat orqanları Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsini geniş işıqlandırıb.

Belə ki, Rusiyanın TASS, "İnterfaks", "Vestnik Kavkaza" agentlikləri, "Kommersant", "Nwes.ru" və digər geniş auditoriyası olan nəşrləri Azərbaycan liderinin Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı fikirlərini oxucularına çatdırıb.

Materiallarda Prezident İlham Əliyev Zəngəzur, Şimal-Cənub dəhlizlərinin iqtisadi əhəmiyyəti, Ermənistanın İkinci Qarabağ müharibəsindən sonrakı qeyri-konstruktiv siyasəti, Laçın dəhlizi ətrafında baş verənlərlə bağlı fikirləri yer alıb.

## *Rəsmi xronika*

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2017-ci il 14 dekabr tarixli 3498 nömrəli, "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020-2025-ci illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 13 fevral tarixli 1816 nömrəli və "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında" 2022-ci il 22 iyul tarixli 3378 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səsküy çirklənmələri normaları"nın təsdiq edilməsi haqqında" 2008-ci il 8 iyul tarixli 796 nömrəli və "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının 2011-ci il 30 dekabr tarixli 275-IVQ nömrəli Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" 2012-ci il 29 noyabr tarixli 758 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

# MEDİA-nın 2022-ci ilin yekunlarına dair hesabat konfransı keçirilib

Dünən Medianın İnkişaf Agentliyinin İcraçı direktoru Əhməd İsmayılovun iştirakı ilə Medianın İnkişafı Agentliyinin 2022-ci ilin yekunlarına dair hesabat konfransı keçirilib. SİA xəbər verir ki, konfransda Əhməd İsmayılov 2022-ci ildə görülən işlər barədə məlumat verib. Bildirib ki, "Media haqqında" Qanun 8 fevral tarixində təsdiqlənib, MEDİA Agentliyi tərəfindən hazırlanmış 8 normativ hüquqi akt layihəsi imzalanıb, qəzet, xəbər saytı və jurnalistlərin məlumatlarının sistemləşdirilməsi məqsədilə Media Reyestri fəaliyyətə başlayıb.









"Jurnalistlərə güzəştli ipoteka kreditindən istifadə etmək hüququ tanınıb, media məhsullarının və həmin məhsulların istehsalı (nəşri) ilə bağlı kağızın idxalı və satışı ƏDV-dən azad olunub"-deyə İcraçı direktor vurğulayıb.

Çap mediasının rəqəmsal transformasiyasının dəstəklənməsi məqsədilə "E-köşk" qəzet və jurnalların rəqəmsal abunə və satış platforması, həmçinin Azərbaycanın ilk milli rəqəmsal media təhlil platforması "Metrix" proqramı istifadəyə verilib.

Qeyd edilib ki, beynəlxalq əməkdaşlığın qurulması çərçivəsində ümumilikdə 14 görüş keçirilib, xarici və beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə 4 tədbir təşkil edilib, Agentlik media ilə bağlı 11 beynəlxalq tədbirdə təmsil olunub. Milli Mətbuat Günündə 20-dək ölkədən olan xarici media nümayəndələri, ekspertlər və yerli media nümayəndələri daxil olmaqla ümumilikdə 200 nəfərin iştirakı ilə Şuşa şəhərində "Mediada qlobal trendlər, yeni çağırışlar" Beynəlxalq Media Forum keçirilib.

Əhməd İsmayılov bildirib ki, MEDİA Agentliyində 500-ə yaxın jurnalist və media subyekti ilə görüşlər keçirilib, 60-dan çox dövlət qurumunun mediaya məsul əməkdaşları üçün seminarlar təşkil edilib, media menecerlərin və jurnalistlərin peşəkarlığının artırılması məqsədilə yerli və xarici mütəxəssislərin iştirakı ilə 800 nəfəri əhatə edən təlimlər keçirilib. Anadolu Agentliyi ilə birgə jurnalistlər üçün hazırlanan onlayn videotəlim platformasına dair işlər yekunlaşmaq üzrədir. Daha sonra konfransda MEDİA-nın İcraçı direktoru jurnalistləri maraqlandıran sualları cavablandırıb. Əhməd İsmayılov daha sonra bildirib ki, 2 ay ərzində media reysterinə müraciətlərinin sayı 200-dür. Onun sözlərinə görə, artıq onlardan 150 media subyekti bu prosesdən uğurla keçib. Həmçinin 180 nəfər jurnalist media reysterinə daxil olmuşdur.

# HULUSİ KILIÇ:

## "Sülhməramlılar vəzifələrini vaxtında və dəqiq yerinə yetirməlidirlər"

"Rus Sülhməramlıları Azərbaycan ərazilərində vəzifələrini yerinə yetirirlər". Bu sözləri SİA-ya açıqlamasında Türkiyənin Azərbaycandakı sabiq səfiri, "İMZA", Sosial İnkişafa Dəstək İctimai Birliyinin Türkiyə nümayəndəsi Hulusi Kılıç deyib.



H.Kılıçın sözlərinə görə, sülhməramlılar 2020-ci il üçtərəfli razılaşmaya əsasən Azərbaycanın suveren ərazisi sayılan və dünya birliyi tərəfindən qəbul edilən Qarabağda fəaliyyət göstərməyə başlayıb: "Bu razılığa görə sülhməramlılar bölgədə yaşayan ermənilərlə hər hansı bir problem yaşanmasının qarşısını almalıdırlar. Yəni təhlükəsizliyi təmin etmək üçün çalışmalıdırlar. Lakin bunu unutmamalıyıq ki, vəzifələrini yerinə yetirdikləri torpaqlar Azərbaycan ərazisidir. Azərbaycan tərəfi monitorinq həyata keçirmək istəyir. Sülhməramlılar isə buna icazə vermir. Bu sülhməramlıların vəzifəsinə aid deyil. Azərbaycan tərəfi istədikləri yerdə monitorinq apara bilər. Azərbaycan ərazisindəki sərvətlər azərbaycanlılara aiddir. Azərbaycan torpaqlarındakı ekoloji terror törədən ermənilərin önünə də Azərbaycan keçməlidir. Sülhməramlılar Azərbaycanın təbii sərvətlərinin başqa tərəfə axıdılmasına icazə verməməlidirlər. Əgər icazə verirlərsə demək ki, cinayət törədirlər. Belədirlərsə, o zaman Azərbaycan ərazisində sülhməramlı kimi fəaliyyətləri dayandırılsın. Əgər sülhməramlılar orda qalırsa, vəzifələrini vaxtında və dəqiq yerinə yetirməlidirlər. Azərbaycan ərazisində qalaraq erməniləri dəstəkləyirlərsə, o zaman onların adı sülhməramlı, yox erməniməramlı olar.

Xalqın və ekofəalların, QHT-lərin Şuşada, Laçın-Xankəndi yolunda keçirdikləri aksiyaları Türkiyə yaxından izləyir və dəstəkləyir. Onların haqlı tələbləri var və bu aksiyalar mülki insanların keçirdiyi zərərsiz aksiyalardır. Heç bir zaman bu aksiyalar yardımlara və sülhməramlılara əngəl olmadı. Qara və soyuğa baxmayaraq, Azərbaycan gəncləri Şuşada Laçın- Xankəndi yolunda aksiya keçirir. Bu onu göstərir ki, azərbaycanlı gənclərinin Vətən və torpaq şüurlarında zirvəyə çatıb. Azərbaycan fəalları nə istəyir? Birinci bunu qeyd edim ki, azərbaycanlıların keçirdikləri aksiyaya əngəl olunmamalıdır. Ermənilərin Azərbaycan torpaqlarında ekoloji terroruna son qoymaq lazımdır. Ermənistanla Laçın istiqamətində sərhəd və gömrük postları yaradılmalıdır. Bu Azərbaycanın ən birinci haqqıdır. Azərbaycan torpaqlarına qanunsuz silah daşımağı dayandırılmalıdır. Bu tələb və istəklər mütləq qarşılanmalıdır. Ermənilərin işğalçı və terror dövləti kimi tanınmasının əsas səbəblərindən biri Fransadır. Bu Fransanın siyasətidir. Fransa bölgədə qarışıqlıq yaradaraq və sülhün tənzimlənməsini gecikdirməyə çalışır. Ermənistan xaricdən idarə olunmağı dayandıraraq özünə qayıtmalıdır. Ermənistan indiyə qədər hər zaman kimlərinsə idarəçiliyi altında yaşayıb. Hətta Ermənistanda yaşamayan diaspora və kilsə belə Ermənistana qarışır. Ermənistan bir dövlət kimi tez bir vaxtda sülhün sabitliyin yaradılmasına və inkişaf prosesinin sürətlənməsinə təkan verməlidir. Son olaraq bildirməliyəm ki, Türkiyə hər zaman Azərbaycanın yanındadır, Azərbaycana atılan səhv addım Türkiyəyə atılan yalnış kimi qiymətləndirilir".

**Qönçə QULİYEVA**

# 20 Yanvar bəşəriyyətin ən ağır və qanlı faciələrindən biri hesab edilir"

"20 Yanvar faciəsi tək Azərbaycan xalqının deyil, bəşəriyyətin ən ağır və qanlı faciələrindən biri hesab edilir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə bildirib.

Millət vəkili qeyd edib ki, dövlət öz vətəndaşını qorumaq əvəzinə, öz vətəndaşına qarşı terror siyasəti həyata keçirdi: "Vətəndaşlar dövlətə vergi verirlər ki, dövlət silahlı qüvvələr yaradaraq, öz vətəndaşını qorusun. Lakin Azərbaycan vətəndaşının verdiyi vergi ilə silah alınaraq, onların özünə qarşı qırğın törətdilər. SSRİ-nin son dövründə erməni millətçiləri onlara meyilli və təxribatçı SSRİ rəhbəri Mixail Qorbaçovdan dəstək alaraq Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağı onun ərazisindən qopartmağa çalışdı. Bununla razılşamayan Azərbaycan xalqı ona qarşı ciddi etirazını bildirdi. Xalqı dinləmək, xalqın ədalətli tələblərini yerinə yetirmək əvəzinə Mixail Qorbaçov hakimiyyəti erməni millətçilərinə dəstək verdi. Azğınlaşan erməni millətçiləri Dağlıq Qarabağda və digər zonalarda Azərbaycan xalqlna qarşı terror və təxribata yönəldilər. SSRİ dövləti isə bu məsələdə onlara dəstək oldu, öz hüquqlarını müdafiə edən Azərbaycan vətəndaşına qarşı qanlı terror həyata keçirdi. Qanunları pozaraq, Azərbaycan Konstitusiyasını nəzərə almayaraq Azərbaycanda Fövqəladə vəziyyət elan edildi. Yeganə məlumat mənbəyi olan Azərbaycan Dövlət Televiziyasının enerji bloku partladıldı və bu rejimdən xəbərdar olmayan sakit şəkildə şəhərdə gəzən insanlar güllələnib edildilər".

Millət vəkili sözlərinə belə davam edib: "Onların içərisində bir nəfərdə olsun silahlı azərbaycanlı yox idi. Öldürülənlərin içərisində uşaqlar, qocalar var idi. Hətta Bakıdan kənar ərazilərdə belə insanlar qətlə yetirildi. Bu heçdə məsələni həll etmədi, daha da baş verən məsələni dərinləşdirdi. Çox təəssüf ki, həmin dövrdə Əbdürrəhaman Vəzirov daha sonra Ayaz Mütəlibov hakimiyyəti Azərbaycan xalqının maraqlarını qoruya bilmədi. Rəhbərsiz kütlə ancaq küçə və meydanlarda öz hüquqlarını müdafiə etmək məcburiyyətində qaldı. Onların hüquqlarını müdafiə edən yeganə nümayəndə dünya şöhrətli rəhbər, Ulu Öndər Heydər Əliyev oldu. Onun 21 yanvarda özünün və ailəsinin həyatını təhlükəyə ataraq, Azəbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlməsi böyük bir siyasi cəsarətin nümayişi idi. O, SSRİ rəhbərliyini Azərbaycan xalqına qarşı cinayətdə günahlandırdı. 20 Yanvar faciəsinə uzun müddət qiymət verilmədi. Lakin Heydər Əliyev Naxçıvanın Ali Məclisinə deputat seçildikdən sonra onun təşəbbüsü ilə 20 Yanvar faciəsinə siyasi qiymət verildi. Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətinin Prezdidenti seçildikdən sonra 1994-cü ildə Azərbaycan Milli Məclisi 20 Yanvar faicəsinə hüquqi və siyasi qiymət verdi. Azərbaycan 1998-ci ildə Heydər Əliyevin imzaladığı fərmanla 20 Yanvar faicəsi yenidən xalqımıza qarşı törədilmiş bir genosid kimi qiymətləndirildi. Azərbaycan xalqı heç bir zaman azadlığa gedən yolun nə qədər çətin olduğu hansı ağır günlərdən keçdiyini, itkilər verdiyini heç vaxt unutmayacaq. Şəhidlərimizin ruhu daima qəlbimizdədir. 20 Yanvar faciəsinin məsuliyyəti həmişə keçmiş SSRİ rəhbərliyinin, erməni millətçilərinin üzərində qalacaqdır. Tarix onları bağışlamayacaq".




**Banuçiçək Hüseynli**

# İnkişafı şərtləndirən

## GÜCLÜ İQTİSADİ BAZA VAR









Dünyada hökm sürən qlobal böhranın təsirinə, eləcə də güclü inflyasiya təzyiqinə baxmayaraq, ötən il Azərbaycan iqtisadiyyatı kifayət qədər uğurla inkişaf etdirilib. Çox sevindirici haldır ki, ÜDM-də rekord artım əldə edilib. Xüsusilə enerji ixracı dəfələrlə artıb və irimiqyaslı nəqliyyat layihələri həyata keçirilməkdədir. Bu uğurlar əhalinin həssas təbəqələrinə dəstək olmaqla yanaşı, məşğulluğun artırılmasına, əmək haqlarının və pensiyaların artırılmasına kömək edən müxtəlif sosial təşəbbüslərin davam etdirilməsinə töhfə verən məqamlardır, hansı ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev yerli telekanallara müsahibəsində bu barədə, 2022-ci ilin sosial-iqtisadi nailiyyətləri və cari ildə qarşıda duran vəzifələr barədə danışıb.

Pandemiyadan sonrakı tənəzzülün aradan qaldırılması, eləcə də işğaldan azad edilmiş ərazilərin müharibədən sonrakı bərpası prosesində ortaya çıxan bütün çətinliklərə baxmayaraq, Azərbaycan iqtisadiyyatında iki ilə yaxındır ki, istehsalın artımının müsbət dinamikası özünü göstərməkdədir. Bu hal qlobal böhran fonunda ölkəmiz üçün xüsusilə diqqətə layiq məqam hesab olunur. Ən çox diqqət ediləcək və sevindirici hal odur ki, dünyanın çətinliklərlə qarşılaşdığı bir məqamda, bir zamanda ölkəmizdə neft-qaz sektoru çox uğurla inkişaf edir, qeyri-neft sənayesi, kənd təsərrüfatı və nəqliyyat sektorları da heç inkişafdan geri qalmır. Qarabağ bölgəsində böyük quruculuq-abadlıq işləri görülür. Bütün sahələrlə yanaşı, tikinti, turizm, xidmət sektoru, sərnişin hava nəqliyyatı və digərləri uğurla bərpa olunur.

Əlbəttə ki, bütün dünyada və postsovet məkanının əksər dövlətlərində olduğu kimi, Azərbaycan da Rusiya-Ukrayna münaqişəsinin nəticələri ilə bağlı çətinliklərlə qarşılaşmaqdadır və bu məsələ ilə bağlı mənfi təsirləri görməmək mümkün deyil. Söhbət ilk növbədə idxal inflyasiya amilləri və qlobal nəqliyyat, logistika və sənaye əlaqələrinin dağılması ilə bağlı istehlak bazarında qiymət artımından gedir. Bu problemin ciddiliyini Azərbaycanda orta illik inflyasiyanın yüksək səviyyəsi göstərir. Təsadüfi deyil ki, bu səviyyə 2022-ci ildə artıq 13,9%-ə çatıb. Sözsüz ki, istehlak qiymətlərinin artımı birbaşa və ya dolayısı ilə qlobal qiymət artımı prosesləri ilə bağlı olub, amma hər bir halda bu məsələ ilə qarşılaşmalı olmuşuq.

”Dünya pandemiyadan sonrakı dövrə yenicə uyğunlaşmağa başlayır və bir çox ölkələrdə qiymətlərdə kəskin artım müşahidə olunur. Yerli iqtisadiyyat isə qlobal sistemin bir hissəsi olduğundan, təəssüf ki, Azərbaycan da bu mənfi təsirləri aradan qaldırır”, deyə cənab Prezident İlham Əliyev Azərbaycan televiziyalarına müsahibəsində bildirib. Dövlət başçısı qeyd edib ki, istehlak qiymətlərinin bahalaşması ciddi qlobal problemə çevrilib. Diqqətə çatdıraq ki, hətta inflyasiyanın adətən 1-1,5 faizi ötmədiyi inkişaf etmiş Qərb ölkələrində belə bu gün çox vaxt ikirəqəmli inflyasiya müşahidə olunur və bu heç də sıradan bir hal deyil. Bu, artıq inflyasiyanın ciddi bir proses olduğun anlamına gəlir. Problemin qlobal xarakter daşıması səbəbindən Azərbaycanın idxal inflyasiya faktoru ilə bağlı xarici proseslərə təsir imkanları kifayət qədər məhduddur. Buna baxmayaraq, dövlət başçısı hesab edir ki, ötən il həyata keçirilən islahatlar xarici amillərin təsirlərinin minimuma endirilməsinə kömək edib.

Heç şübhəsiz ki, respublikada ölkə vətəndaşlarının sosial rifahının gücləndirilməsinə yönəlmiş əməli addımların atılması da eyni dərəcədə vacib məqam hesab olunur. ”Biz sosial layihələr və proqramlar vasitəsilə qlobal böhranın xalqımız üçün nəticələrini yumşaltmağa çalışırıq. Bu yaxınlarda imzaladığım çox geniş sosial paket bunu bir daha sübut edir”, deyə cənab Prezident İlham Əliyev bildirib. ”Xüsusən də, minimum əmək haqqının 15% artırılaraq 345 manata çatdırılması inflyasiyanın təsirlərinin yumşaldılmasına xidmət edir. Eyni zamanda, pensiyaçıların sosial təminatının yaxşılaşdırılması məqsədilə minimum pensiya məbləği də 16,7 faiz artırılaraq 280 manata çatdırılıb və bu proses davam etdiriləcək”, deyə dövlət başçısı vurğulayıb və diqqətə çatdırmaq yerinə düşərdi ki, bu məqam ölkəmizdə vətəndaş amilinin birinci yerdə dayanmasından xəbər verir. Son illərin təcrübəsi göstərir ki, bu addımlar birdəfəlik addımlar sayıla bilməz, onlar müntəzəm xarakter daşıyır və iqtisadi imkanlar artdıqca, gələcəkdə əhaliyə sosial dəstəyin mütləq artacağına ümid etməyə dəyər. Digər məsələlərlə yanaşı, son dövrdə ehtiyacı olan şəxslərə ünvanlı sosial yardımın göstərilməsi sahəsində, şəffaflığın təmin edilməsi istiqamətində xeyli iş görülüb. Dövlət başçısı yerli telekanallara müsahibəsində onu da xatırladıb ki, bu gün 60 minə yaxın ailə ünvanlı sosial yardım alır, hansı ki, hər ailəyə təxminən 460 manat düşür və bu yardımın həcmi ildən-ilə artmaqdadır. Dövlət tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə dəstək istiqamətində atılan addımlar da eyni dərəcədə mühümdür və diqqətdən yayınan deyil. Ötən il bu kateqoriyadan olan ailələrə 1500, bir il əvvəl isə 3000 mənzil verilib. Cənab Prezident İlham Əliyevin vurğuladığı kimi, bu, veteranların, şəhid olmuş qəhrəmanların ailələri qarşısında mənəvi borcumuzdur. Bu mühüm iş cari ildə də davam etdiriləcək, növbədə olanlara ən azı 1500 və daha çox mənzil veriləcək. Nəzərə alaq ki, ümumilikdə Azərbaycanda veteranlara verilən sosial dəstəkdən 13 min ailə yararlanıb. İkinci Qarabağ müharibəsi əlillərinin ən müasir protezlərlə təmin olunması prosesi də fəal şəkildə davam etdirilməkdədir və bunlar dövlətin sosial siyasəti kimi yüksək qiymətləndirilir.

Sosial sahədə irəliləyiş ən çox birbaşa olaraq ölkədə iqtisadiyyatın inkişafı və məşğulluğun genişləndirilməsi ilə bağlıdır. Bu baxımdan əmək bazarında bütün proseslərin rəqəmsallaşdırılmasına, elektron əmək müqavilələrinin bağlanmasına, işəgötürənlərlə işçilər arasında münasibətlərdə digər islahatlara ciddi diqqət yetirilir. İşsizliyin azaldılması və məşğulluğun artırılması məqsədilə ötən il kiçik və orta sahibkarlığın (KOB) dəstəklənməsi, o cümlədən dövlət-özəl tərəfdaşlıq təşəbbüslərinin genişləndirilməsi nəzərə alınması vacib məqamlar hesab olunmalıdır. Heç şübhəsiz ki, sosial proqramların icrası, qeyri-neft sənayesi və aqrar sektorun investisiya dəstəyi, Qarabağ bölgəsində infrastrukturun bərpası və yaşayış evlərinin, sosial obyektlərin, sənaye klasterlərinin tikintisi üzrə genişmiqyaslı proqramın büdcədən maliyyələşdirilməsi ilə reallaşır. Məcburi köçkünlərin geri qayıtması belə Azərbaycanda hökumətin bütün sosial-iqtisadi tədbirləri üçün əsas maliyyə bazası olan güclü iqtisadi təməlin olması sayəsində mümkün olubdur.

”Keçən il Azərbaycanın ÜDM-i rekord həddə, ən son yenilənmiş məlumatlara görə - 134 milyard manata çatıb, xarici ticarət əhəmiyyətli dərəcədə artaraq 50 milyard dolları ötüb, ticarətdə müsbət saldo isə 25 milyard dollar təşkil edib”, deyə cənab Prezident İlham Əliyev vurğulayıb. Sözsüz ki, ölkənin iqtisadi müstəqilliyinin möhkəmləndirilməsi onun gələcək inkişafında qeyd-şərtsiz amil hesab olunur. Bununla yanaşı, nəzərə alaq ki, respublikanın xarici borcu bu gün 7 milyard dollardan aşağıdır, həm də ÜDM-ə nisbətdə xeyli azalıb. Əgər 2022-ci ilin əvvəlində xarici borc ümumi daxili məhsulun 17%-ni təşkil edirdisə, ilin sonuna bu rəqəm 9,5%-ə düşüb. Müqayisə üçün dövlət başçısı xatırladıb ki, bir çox inkişaf etmiş ölkələrdə xarici borcun ÜDM-ə nisbəti 130-150 faizə çatır. Azərbaycanda borcun nisbətən aşağı səviyyədə olması ölkəyə lazım gəldikdə beynəlxalq donorlardan borc götürmək üçün geniş imkanlar yaradır.

Çox sevindirici haldır ki, hazırda respublikanın beynəlxalq kreditlərə tələbatı cüzi səviyyədədir. Onu da unutmaq lazım deyil ki, sosial-iqtisadi tədbirlərin böyük əksəriyyəti büdcənin maliyyələşdirilməsi, habelə özəl sektorun və digər daxili resursların cəlb edilməsi hesabına həyata keçirilir. Üstəlik, neft-qaz layihələrinin və qeyri-emal sektorunun uğurlu inkişafı ilə yanaşı, Azərbaycan iqtisadiyyatı daha bir mühüm komponentlə, əhəmiyyəti dəfələrlə artmış nəqliyyat sektoru ilə zənginləşir. ”Biz uzun illərdir ki, nəqliyyat sektoruna böyük sərmayələr qoyuruq, investisiyalar cəlb edirik və bu gün Azərbaycanda bütövlükdə həm Orta Dəhliz, həm də Şimal-Cənub nəqliyyat dəhlizi üzrə işlər yekunlaşıb. Hazırda dəmir yolunun hissələri, xüsusən də Bakı-Yalama xətti müasirləşdirilir, bundan sonra Ələt-Astara xəttində bu işlər davam etdiriləcək. Bütün bunlar Şimal-Cənub dəhlizinin imkanlarını artıracaq və Azərbaycan ərazisindən yüklərin daşınması mərhələli şəkildə 15 milyon tondan 30 milyon tona çatdırıla biləcək”, deyə dövlət başçısı diqqətə çatdırıb.

Prezident həmçinin qeyd edib ki, ”Orta Dəhliz”in imkanlarının genişləndirilməsi məqsədilə Ələt limanının terminallarının tutumu artır. Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun modernləşdirilməsi üzrə işlərə başlanılıb, hansı ki, onun ötürücülük qabiliyyəti ildə 1 milyon tondan 5 milyon tonadək artırılacaq. Bu məqsədlə büdcədən 100 milyon dollardan çox vəsaitin ayrılacağı da təsadüfi, yaxud əbəs yerə deyil. Gələcəkdə Zəngəzur dəhlizinin dəmir yolu və yol infrastrukturunun tikintisi üzrə davam edən planlar çərçivəsində Azərbaycanın tranzit imkanları daha da genişləndiriləcək. Avropa İttifaqı, Mərkəzi Asiya, Çin, Türkiyə, Rusiyanın bütün yuxarıda sadalanan layihələrinə böyük marağı nəzərə alsaq, şübhəsiz ki, gələcəkdə ölkənin nəqliyyat sektoru enerji ilə yanaşı, ən çox inkişaf edən sahəyə çevriləcəkdir. Bütün bunlar isə respublikanın valyuta gəlirlərinin təmin edilməsi baxımından mühüm mənbə hesab olunur.

Bütün yuxarıda sadalananlar təsdiq edir ki, ölkə iqtisadiyyatının inkişafından danışmaqda hər kəs haqlıdır. Bundan sonra iqtisadi inkişafa daha böyük zəmin olduğu da etiraf edilməlidir. Çünki, ölkəmizin bütün sahələrdə inkişafı üçün güclü iqtisadi baza artıq mövcuddur. Sevindirici haldır ki, iqtisadi inkişafın ildən-ilə daha sürətlə baş verdiyini hər birimiz müşahidə etməkdəyik və statistik göstəricilərdə də bu özünü bir daha sübut etməkdədir.

***İnam Hacıyev***



# MEDİA iki il ərzində hansı uğurlara imza atıb?

**Bildiyimiz kimi, Medianın İnkişafı Agentliyinin (MEDİA) yaranmasından 2 il ötür. Bəs, MEDİA bu 2 il ərzində hansı uğurlara nail olub? Bu gün onların uğurları haqqında nə söyləmək olar və fəaliyyəti necə dəyərləndirilir? SİA mövzu ilə bağlı media nümayəndələri arasında sorğu edərək onların fikirlərini öyrənib.**

**Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid:** ”Medianın İnkişafı Agentliyinin ikinci doğum gününü təbrik edirəm. Bu illər ərzində MEDİA agentliyi çox gərgin fəaliyyət göstərdi. Əvvəla Media haqqında qanunun hazırlanma-



sında onların misilsiz rolu var idi və hərtərəfli qanunun hazırlanması işində gecə-gündüz çalışdılar.

Medianın İnkişafı Agentliyi medianın inkişafı istiqamətində aktiv rol oynayır. Onların həm ADA universitetində keçirdikləri təlimlər, yeni texnologiyalara bələd jurnalist nəslinin yetişməsi istiqamətində atdığı addımlar təqdirəlayiqdir. Eyni zamanda, Azərbaycan dövlətinin yazılı və onlayn mediaya dəstəyi istiqamətində Medianın İnkişafı Agentliyinin fəaliyyəti qənaətbəxş və lazımlıdır. Bu mənada, iki il onlar üçün dinamik və çevik fəaliyyət olub. Bundan sonra da Azərbaycan mediasının inkişafı istiqamətində olan fəaliyyətdə uğurlar arzu edirəm”.

**Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Media eksperti Müşfiq Ələsgərli:** ”Azərbaycanda media məkanının yenilənməsi, bu müstəvidə səliqə-sahman yaradılması üçün çox əhatəli bir proses gedir. Yenilənmə prosesi media məkanında şəffaflığın yaradılması,



peşəkarlığın artırılması, qanunvericiliyin təkmilləşdirilməsindən başlamış, KİV təsisçiliyində yeni standartların tətbiqinə, KİV-lərin iqtisadi dayaqlarının möhkəmləndirilməsinə qədər ən müxtəlif istiqamətləri əhatə edir. 2019-cu ildən etibarən başlayan son islahatlar dalğası 2021-ci ildə Prezident İlham Əliyevin imzaladığı ”Media sahəsində islahatların daha da dərinləşdirilməsi” adlı sərəncamla intensivləşib. Hazırda ölkəmizdə medianı xaotik vəziyyətdən ayırıb inkişaf yoluna çıxarmaq üçün çoxşaxəli, böyük proqram həyata keçirilir. Proqram KİV məkanında kadr, struktur dəyişikliyindən başlamış təlim-tədris proqramlarının yenilənməsinə, hüquqi bazanın modernləşdirilməsinə qədər ən müxtəlif qütbləri əhatə edir. Məsələ ondadır ki, islahatlar proqramı kontekstində yaradılan Medianın İnkişaf Agentliyi, bu gün özü yenilənmə proseslərinin mərkəzində dayanır, prosesdə koordinator rolunda çıxış edir. ”Media haqqında” yeni qanunun hazırlanmasından başlamış, peşəkarlıq kurslarının keçirilməsinə, Media reyestrinin tətbiqinə qədər ən müxtəlif vəzifələri yerinə yetirir. MEDİA-nın koordinatorluğu ilə islahatlar çərçivəsində təlim-tədris mexanizmləri də yenidən qurulur. Kurslar təkcə jurnalistlər üçün deyil, media sahibkarları, media idarəçiləri üçün də təşkil edilir. Müasir media menecmenti standartlarının Azərbaycan KİV-lərində yer tutmasına rəvac verir.

Qısa bir müddətdə-2 il ərzində bu qədər işləri qurmaq, yeni mexanizmlər yaratmaq ciddi əzmkarlıq, iradə və peşəkarlıq tələb edir. Sevindirici haldır ki, MEDİA bütün bu işlərin öhdəsindən gəlir”.

**”Bakı Xəbər” qəzetinin baş redaktoru və siyasi şərhçi Aydın Quliyev:** ”Medianın İnkişafı Agentliyinin yaranması ölkəmizdə media sahəsində islahatların həyata keçirilməsinin ən mühüm mərhələ-



sindən və nailiyyətlərindən biridir. Cəsarətlə Medianın İnkişaf Agentliyini Azərbaycanda, xüsusilə, media mətbuat sahəsində islahatlar prosesinin ən uğurlu nailiyyət və tapıntılarından biri kimi qiymətləndirmək olar.

Artıq iki ildir fəaliyyət göstərən agentliyin baqajında müsbət səmərəli gələcəyə yönəlmiş təsirə və gücə malik olan nailiyyətlər mövcuddur. Bu 2 ildə agentlik ölkəmiz üçün çox vacib olan medianın inkişafı üçün qanunvericilik çərçivəsinin daha da təkmilləşdirilməsi yönündə mühüm addımlar atdı. Köhnə dövrdən qalmış və bir çox cəhətlərə görə müasir çağırışlara tam şəkildə cavab verməyən, qanunvericiliyin dəyişdirilməsi və yeni qanunun yazılması uğurla həyata keçirildi. Hansı ki, Media haqqında yeni qanunu ölkəmizdə medianın bütün seqmentlərinin, həm çap mediasının, həm onlayn, həm də audiovizual medianın inkişafı yolunda maneə ola biləcək bütün təzahürləri həm aradan qaldırdı, həm də gələcəkdə meydana çıxa biləcək maneələrdən artıq sığortalanmaq üçün böyük hüquqi gücə malik olan standartlar ortaya qoydu.

Medianın inkişafı haqqında yeni qanunun ölkəmizdə medianın fəaliyyətini hələ uzun illər uğurla tənzimləyə biləcək heç bir şübhə yoxdur. İki il ərzində Medianın İnkişafı Agentliyi media orqanlarının reyestrini, jurnalistlərin fərdi reyestrini yarada bildi və hazırda media orqanlarının və jurnalistlərin bu reyestrdən qeydiyyatdan keçmə prosesi davam edir. Hansı ki, bu təkcə media orqanlarına və jurnalistlərə lazım olan proses deyil. Şübhəsiz ki, media və jurnalistlərin reyestri hər iki həm media orqanlarının, həm də jurnalistlərin özləri üçün peşə fəaliyyəti nöqteyi-nəzərindən olduqca əlverişli imkanlar və şanslar açır. Eyni zamanda, bu reyestr dövlətimizə media sahəsində inkişaf perspektivlərini daha dəqiq görmək və inkişaf təmayüllərinə daha əsaslı dəstək siyasəti müəyyənləşdirməkdə olduqca maraqlı imkanlar açır. Bu nöqteyi-nəzərdən hər iki məsələni həm media orqanlarının, həm də jurnalistlərin fərdi reyestrini böyük uğur kimi qiymətləndirmək olar.

Jurnalistlərin yəni, aztəminatlı bir təbəqənin ipoteka ilə güzəştli mənzillər almaq hüququnun məhz bu qanunvericilik çərçivəsində gerçəkləşməsi də əldə etdiyimiz ciddi uğurlardan biridir. Hansı ki, Medianın İnkişaf Agentliyinin aktivlərinə yazıla bilən uğurlu addımdır. Bundan başqa, Medianın İnkişafı Agentliyi bu iki il müddətində peşəkar medianın əsl çərçivəsinin müəyyənləşdirilməsi və onu peşəkar mediaya yad xallardan və yad təmayüllərdən, təsirlərdən qorunması yönümündə də əhəmiyyətli olan praktik addımlar atdı. Yəni, agentliyin fəaliyyəti bu iki il ərzində həm medianın inkişafı üçün qanunvericilik bazasının təkmilləşdirilməsinə və yenilənməsinə yönəldi. Hansı ki, bu istiqamətdə böyük nəticə var, həm də medianın praktik müstəvidə fəaliyyəti üçün neqativ sayılan tendensiyaların aradan qaldırılması, ixtisara salınması və peşəkar medianın qondarma və yaxud da ki, yalançı ziyanlı mediadan sözün həqiqi və ayrılması üçün lazım olan addımları atdı.

Bu gün Medianın İnkişaf Agentliyinin atdığı addımlar ölkə ictimaiyyəti tərəfindən diqqətlə izlənilir. Elə agentliyin mühüm nailiyyətlərindən biri də, məhz media sahəsində aparılan islahatlara bu islahatların perspektivinə və bugünkü hədəflərinə ictimaiyyətin nəzər diqqətini geniş şəkildə cəlb etməkdən ibarətdir. Əgər agentliyin apardığı proseslər, işlər cəmiyyətin geniş bir qisminin diqqətini cəlb edirsə, əlbəttə, bunun özü də çox böyük bir uğurdur. Medianın İnkişafı Agentliyinin həyata keçirdiyi tədbirlər, atdığı addımlar həm bu günə qədər müvafiq sahədə olan ziyanlı tendensiyaların və neqativlərin qarşısını almaq, kəsmək və onların gələcəkdə bir daha baş qaldırmasına imkan verməmək gücü ilə diqqəti cəlb edir, həm də medianın inkişafının bundan sonrakı səmərəli istiqamətlərini müəyyənləşdirmək baxımından da əhəmiyyətlidir. Bir sözlə, Medianın İnkişafı Agentliyinin yaradılması Azərbaycanda media islahatlarının uğurlarından biri sayıla bilər.

Medianın İnkişafı Agentliyi yaranandan və fəaliyyət göstərdiyi dövrdə illərdir bizi narahat edən reket jurnalistika kimi anlayış və bu anlayışın çevrəsində, əhatəsində olan əməllərə çox nadir hallarda rast gəlinər və belə görünür ki, Medianın İnkişafı Agentliyinin fəaliyyəti ölkədə reket jurnalistika kimi bir problemin kökünün kəsilməsinə tamamilə yaxındır”.

**”İki Sahil”qəzetinin baş redaktoru Vüqar Rəhimzadə:** ”Medianın İnkişafı Agentliyi Azərbaycanda müstəqil medianın inkişafında kifayət qədər önəmli layihə-



lərə imza atıb, müasir şəkildə son iki ildə öz fəaliyyətini qurub, beynəlxalq təcrübənin tətbiqi, qarşılıqlı əməkdaşlıq, yerli jurnalistlərin peşəkarlığının artırılması və təlimlərin keçirilməsi kimi uğurlu layihələri reallaşdırıb.

Ümumən qeyd edim ki, MEDİA agentliyi iki il ərzində kifayət qədər uğurlu, tam peşəkar bir yanaşma ortaya qoyub və Azərbaycan mətbuatının inkişafında öz töhfələrini verməkdə davam edir.

Media haqqında qanunun qəbul olunması, cənab Prezidentin media ilə bağlı qarşıya qoyduğu hədəflərə nail olunmasında agentlik üzərinə düşən vəzifəni yüksək səviyyədə həyata keçirməyə çalışıb”.

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İnformasiya Təminatı və Sənədlərlə İş şöbəsinin müdiri, jurnalist Yadigar Məmmədli:** ”Məlum olduğu üzrə, MEDİA agentliyinin yaranmasından iki il ötür. 2021-ci ildə cənab Prezidentin sərəncamı ilə yaradılan MEDİA agentliyi ötən iki il ərzində bir sıra mühüm işlər görüb. Əslinə qalsa, sərəncamdan da göründüyü kimi media sahəsində inkişafı, çağırışları və bu sahədə ereyformaların həyata keçirilməsinin önəmini nəzərə alaraq cənab Prezident məhz MEDİA agentliyi yaratmışdır. Bu müddət ərzində Media haqqında qanun da qəbul olundu. Media haqqında qanun zamanın çağırışı kimi vacib idi. Bizim KİV haqqında qanun 2000-ci ilin əvvəlində, təxminən 20 il bundan əvvəl qəbul olunmuş və inkişaf etmişdir. Təbii ki, media da bu sahədə inkişafı nəzərə alaraq orada bu qanuna əlavələr, dəyişikliklər olunmağı ilə yeni qanun da qəbul olundu.

Yeni qanun Azərbaycanda medianın inkişafına xidmət etmək məqsədi güdür. Ümumiyyətlə, Azərbaycanda medianın inkişafı ilə bərabər, həm də bu münasibətlərin tənzimlənməsi, jurnalistlərdən tutmuş media qurumlarına qədər onların təsnifatı, fəaliyyəti öz geniş əksini tapmışdır. Mənə elə



gəlir ki, Media haqqında qanun özünün işləməsinə başlayıb və çox yaxın zamanda medianın bu sahədə səliqə-sahmana salınması, jurnalistlərin fəaliyyətinin gücləndirilməsi, jurnalist və jurnalist qurumlarının reytinqinin onlara olan inamın artırılmasına gətirib çıxarır.

Ümumiyyətlə, bütövlükdə peşəkarlığın artırılmasına gətirib çıxaracaq. Məhz elə bu sahədə MEDİA agentliyi qısa müddət ərzində çoxlu işlər görür. Bura həm jurnalistlər, həm də qurumlar arasında keçirilən çoxsaylı tədbirlər, seminarlar, təlimlər, treninqlər, mediaya maliyyə yardımı ayrılması, jurnalistlər arasında fərdi müsabiqə keçirilməsi aiddir. Jurnalist müsabiqələri arasında, məsələn, o faktdır ki, bir sıra jurnalistlər qalib olduqdan sonra bunun müsabiqələrin daha şəffaf olmasını vurğulayır. Əslində, bu, MEDİA agentliyinin bu sahədə gördüyü işlərin qiymətidir.

Mən ümid edirəm ki, MEDİA agentliyi hələ çox kiçik bir dövrdür, qarşıda onu çox böyük işlər gözləyir, ümidlər var və ondan gözləntilərimiz çoxdur. Şəxsən hər bir jurnalistin və jurnalist təşkilatının ümid edirəm ki, ən qısa zamanda MEDİA agentliyi ona olan gözləntini doğruldacaq və nəticədə Azərbaycan mediası inkişafının növbəti mərhələsinə qədəm qoyacaq”.

***Ayşən Vəli***



# Paşinyanın sülhməramlı axtarışı

## *Nikol Moskva ilə bağlı "narahatlıq ifadə edir"*

Ermənilər paradoksal millətdir. Bütün addımları ziddiyyətlidir. Türklər demişkən, sağ sallayıb, sol göstərəndirlər. Bu millətlə, qonşu olaraq bizim başımıza problem olaraq keçirilənlərlə anlaşa bilməməyimizin səbəbini də burada axtarmaq lazımdır. 1988-ci ildən başlanan münaqişə bəlli səbəblərdən torpaqlarımızın 2020-ci ilədən itirilməsi ilə nəticələnmişdi. Dünyaya bu millətin və qondarma Ermənistanın işğalçı olduğunu subut edə bilmirdik demirik, sadəcə bunu bəlli dairələr qəbul etmək istəmirdilər. Xristian təəssübkeşliyi aradüzəltmə missiyasını üzərinə götürmüş Qərbi həqiqəti söyləməyə, etiraf etməyə böyük manеə idi. Bu baryerin heç vaxt aşıla bilməyəcəyini artıq qəbul edən Azərbaycan BMT TŞ-nin 4 qətnaməsinə istinad edərək ərazilərinin - Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi əməliyyatlarının qaçılmaz olduğunu qəbul etdi. Bu gün 30 il bundan əvvəl itirdiyimiz torpaqlar azaddır, əlimizdədir, oralarda böyük quruculuq işləri görülür. Ermənistana da təklif edirik ki, sülhə gəlsin. Məğlub Ermənistan isə hikkəsindən, iddiasından masada oturmaq istəmir.

Dünyanın bəzi ölkələriin, daha doğrusu müstəmləkə siyasətindən imtina etməyən, hələ də kiçik xalqları əzmək, istismar etmək adətindən əl çəkməyən Fransa kimi dövlətlərin terrorçu Ermənistana verdikləri hərtərəfli dəstək hesabına İrəvan vələ də ipə-sapa yatmır. Paşinyan cilovlanmasına müsahidə etmir, üstəlik də müttəfiqlərini ittiham edir.

Ermənistanın baş naziri Nikol Paşinyan çərşənbə axşamı Moskvanın və onun nəzarətində olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Qarabağ nizamlanmasındakı rolu ilə bağlı çox sərt açıqlamalar verib. Düzdür, özü də bu sözləri ”tənqid yox, narahatlığın ifadəsi” kimi dəyərləndirməyə çağırıb. Ermənistan lideri 2023-cü ildə KTMT-nin Ermənistanda təlimləri keçirməkdən imtina etdiyini açıqlayıb və həmçinin, gələcəkdə Rusiya sülhməramlılarının beynəlxalq missiya ilə əvəzlənməsinin daha yaxşı ola biləcəyini açıqlayıb.

Nikol Paşinyanın yanvarın 10-da erməni mətbuatı üçün keçirdiyi mətbuat konfransında Rusiyaya qarşı qınaqlar səsləndirilib. Baş nazirin ilk qeydi iki ölkə arasındakı münasibətlərin ”əvvəllər heç vaxt bu qədər etimad göstərmədiyi” olub. Deyib ki, biz Rusiya sülhməramlılarını tənqid etmirik, onların hərəkətlərindən narahat olduğumuzu bildiririk.

Nikol xatırladıb ki, Rusiya sülhməramlı kontingenti Ermənistanı Qarabağla birləşdirən Laçın yolunun fəaliyyətini təmin etməlidir. Amma bu strateji əhəmiyyətli yol 2022-ci il dekabrın 12-dən blokadadadır. Səbəb kimi də baş nazir ekoloji fəalların keçirdiyi aksiyanı göstərib. Yəni əvvəlki hava. Ekofəallar aksiyanı keçirməkdə əsas məqsədin Ermənistan tərəfinin Qarabağdan faydalı qazıntılar çıxarmasının və silah idxalının qarşısını almaq olduğunu desələr də separatçılarla eyni avazda oxuyan İrəvan hakimiyyəti burada başqa nüans axtarır.

Mülki şəxslərə gəlincə, onlar üçün keçid açıqdır. Laçın dəhlizi ilə Rusiyanın sülhməramlı missiyasının yük maşınları və Beynəlxalq Qızıl Xaç Komitəsinin maşınları sərbəst hərəkət edə bilir ki, bunun sayəsində Qarabağa dərman preparatları çatdırmaq, ağır xəstələri çıxarmaq mümkündür.

Hətta bu yaxınlarda Rusiyanın ”Kommersant” nəşri Qarabağdakı ermənilərlə virtual söhbətlər aparıb, məlum olub ki, vəziyyət ilk növbədə psixoloji baxımından kritik deyil. Qarabağ Xankəndi şəhərindəki mağazalarda piştaxtalar boş deyil, mallar var. Amma kuponla verilir. Separatçılar isə bunu dözülməz adlandırırlar.

Jurnalistlərə açıqlamasında Nikol Paşinyan deyib ki, əgər Rusiya obyektiv və ya subyektiv səbəblərdən öz öhdəliklərini yerinə yetirə bilmirsə BMT Təhlükəsizlik Şurası ya hərbi kontingentə beynəlxalq mandat verməli, ya da Qarabağa yeni çoxmillətli sülhməramlı missiya göndərməlidir. Eyni zamanda, İrəvan təkbaşına belə bir təşəbbüslə BMT-yə müraciət etmək istəmir. ”Əgər bu məsələ ilə bağlı Təhlükəsizlik Şurasına müraciət etsək, bu o deməkdir ki, biz Rusiyaya qarşı çevrilmişik”, - Paşinyan izah edib.

İrəvanın dəfələrlə tənqid etdiyi KTMT-yə qarşı yeni hücumlar da olub. ”KTMT-nin çoxmillətli kontingenti nəzəri ideyadır”, - deyə Nikol Paşinyan rus sülhməramlılarının mümkün əvəzlənməsi barədə danışmağa davam edib: ”Bəs bir sıra KTMT ölkələri Qarabağla bağlı vəziyyətdə nə dərəcədə neytral və obyektivdir? Onlar bizim müttəfiqimiz olduqları üçün de-yure neytral deyillər və Ermənistanla müqayisədə Azərbaycanla daha dərin iqtisadi və siyasi əlaqələrə malik olduqları üçün de-fakto neytral deyillər”. Bununla bağlı Ermənistan lideri hətta 2023-cü ildə ölkəsində KTMT təlimləri keçirməkdən imtina edib. Rusiya Federasiyası Prezidentinin mətbuat katibi Dmitri Peskov isə cavabında sadəcə təşkilatdakı həmkarlarının ”Ermənistanın mövqeyinin təfərrüatlarını aydınlaşdıracaqlarına” söz verib, həm də bu ölkəni Moskvanın ”çox yaxın müttəfiqi” adlandırıb.

Maraqlıdır ki, Azərbaycan Prezidenti İlham Əliyev ölkənin ən böyük telekanallarının jurnalistlərinə müsahibə verib. Onun çıxışı Nikol Paşinyandan fərqli olaraq gələcəyə ümidləri artırır: ”İkinci Qarabağ müharibəsi başa çatandan sonra bizim Ermənistan tərəfinə göndərdiyimiz siqnallar da ondan ibarət idi ki, siz bu vəziyyətlə barışmalısınız və kapitulyasiya aktına imza atmaqla faktiki olaraq bizim aramızdakı bu qarşıdurma başa çatmalıdır. Ancaq əfsuslar olsun ki, biz bunu görmədik, əksinə, Ermənistan həm Qarabağda, həm sərhəd istiqamətində öz



planlarından əl çəkmədi və biz məcbur olub tədbirləri gördük, biz onlara xəbərdarlıq etmişdik. Eyni zamanda, avropalı tərəfdaşlarımıza da bildirmişdik ki, əgər biz təhlükə görsək, dərhal hərəkətə keçəcəyik. Hesab edirəm ki, o cümlədən ona görə də beynəlxalq aparıcı qüvvələrin reaksiyası bu hadisələrə adekvat olmuşdur. Yəni, bizi heç kim qınamamışdır, heç kim bizi günahlandırmamışdır. Çünki hər kəs gördü ki, bu, toqquşmaların səbəbkarı biz deyilik”.

Cənab İlham Əliyev xüsusən də azərbaycanlı əhalinin Qərbi Azərbaycan ərazisinə, yəni indiki Ermənistanın ərazisinə zorla qatılmış Qərbi Zəngəzura qayıtmasını Azərbaycanın qanuni haqqı hesab edir. Artıq ölkədə bu məsələ ilə bağlı işçi qrupu da yaradılıb. Hazırda Bakı ilə İrəvan arasında hər hansı dialoqun yaxşı getmədiyini göstərən dolayı siqnallardan biri də separatçıların hələ də fəaliyyət göstərdiyi Qarabağda baş verənlərlə bağlıdır. Orada isə yeni separatçı nəsli formalaşdırılma mərhələsindədir. Amma son hadisələrin fonunda ermənilərin növbəti fiaskosu qaçılmazdır. Onlara heç sülhməramlılar da kömək edə bilməyəcək...

***V.VƏLİYEV***

---

<u>Dünya Səhiyyə Təşkilatından xəbərdarlıq:</u>

# Yeni virus gəlir...



Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) yeni növ koronavirusun (Covid-19) ”XBB.1.5” variantının yayılma sürətinə diqqət çəkib və bütün ölkələrə müraciət edərək, hava ilə səyahət edən sərnişinlərə maska taxmağı tövsiyə edib. SİA-nın əldə etdiyi məlumata görə, ÜST qeyd edib ki, ”XBB.1.5” variantına yoluxma halları Avropada yüksəlişdədir. Ümumdünya Səhiyyə Təşkilatı Avropa bürosunun fövqəladə vəziyyətlər üzrə eksperti Katrin Smolvud bildirib ki, sərnişinlərə uzun məsafəli uçuşlar kimi yüksək riskli mühitlərdə maska taxmağı tövsiyə etmək lazımdır. Sözügedən subvariantın qlobal infeksiya dalğasına səbəb olub-olmayacağı hələ məlum deyil.

# İƏT Azərbaycan ərazisində təbii sərvətlərin qanunsuz istismarını pislədi




İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Azərbaycanın Qarabağ bölgəsində Ermənistan tərəfindən təbii sərvətlərin qanunsuz istismarını pisləyib. Bu barədə İƏT Baş Katibliyinin bəyanatında qeyd olunub. Bildirilib ki, bu, 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanmış üçtərəfli Bəyanatın pozulmasıdır. ”Beynəlxalq hüquqa və Azərbaycan Respublikasının milli qanunvericiliyinə əsasən, faydalı qazıntı yataqlarının ekoloji amillər nəzərə alınmadan istismarı nəinki qanunsuzdur, həm də ciddi və qanuni narahatlıq doğurur”, - deyə bəyanatda qeyd olunub.

Katiblik bütün tərəfləri fikir ayrılıqlarını dialoq yolu ilə həll etməyə çağırıb və Azərbaycanın bu istiqamətdə səylərini yüksək qiymətləndirib.

2022-ci il martın 22-23-də Pakistan İslam Respublikasının İslamabad şəhərində keçirilmiş İƏT Xarici İşlər Nazirləri Şurasının 48-ci Sessiyası tərəfindən qəbul edilmiş qətnaməni xatırladaraq, Baş Katiblik Azərbaycan ilə Ermənistan arasında münasibətlərin bir-birinin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin qarşılıqlı tanınması və hörmət prinsipləri əsasında normallaşdırılmasına çağırış edib.

# Postmüharibə və postpandemiya dövrünün AZƏRBAYCANI

**Dünya və region ölkələrindən fərqli olaraq Azərbaycan 2020-ci ildən bu günədək, yəni iki il müddətində iki dəhşətli müharibə ilə üz-üzə qaldı. Bunlardan biri gözəgörünən düşmən, yəni qonşu Ermənistanla olan, digəri isə gözəgörünməyən, yəni koronavirus pandemiyası ilə olan müharibə idi. Koronavirus həyatımıza daxil olanda Azərbaycanda heç kim təsəvvür belə etməzdi ki, bu ağır virusla mübarizə başa çatmamış digər bir virusla- 30 il torpaqlarımızı işğal altında saxlayan, ötən yüzilliklər boyu isə xalqımıza qarşı deportasiya və soyqırımı həyata geçirən qonşu düşmənlə müharibəyə başlayacaq. Yəni 2020-ci ilə bu gündən baxdıqda, gözlər qarşısında ağır, çətin bir il canlanır. Bu, bütün dünya üçün belə olsa da, lakin Azərbaycan üçün ikiqat çətin və ağır oldu. Ölkəmizin iqtisadi gücü sayəsində 44 günlük Vətən müharibəsində əldə olunan böyük Zəfər və pandemiyanın aradan qaldırılmasında həyata keçirilən hərtərəfli tədbirlər bu gün, yəni 2023-cü ildə postmüharibə və postpandemiya dövründə müharibə və pandemiya dövründə qazanılan qələbədən alınacıqlı ilə danışmağa imkan verir.**

Tarix vərəqləndikcə yaddaqalan olur. Bu səbəbdən də pandemiya və müharibə dövrünü xatırlamaqla tarixin o üzündən bugünkü Azərbaycana bir körpü salmaq istədim bu yazı ilə. Tarixin o üzü və bu üzü...



## Biz birlikdə güclüyük!

2020-cu il həyatımıza pandemiya ilə daxil oldu. Bir-biri ilə iqtisadi, mədəni əlaqələri, dostluq münasibətləri və ya ziddiyyətləri, münaqişələri ilə gündəmdə olan dünya dövlətlərini bu tarixdən ortaq bir məsələ birləşdirdi: koronavirus pandemiyası. Qısa zaman kəsiyində 200-dən çox dövləti əhatə edən "Covid-19" adlandırılan virus hər gün minlərlə insanın bu epidemiyaya yoluxması, xəstəxanalara yerləşdirilməsi, müalicə olunması və ya həyatını itirməsinə səbəb oldu. Sərhədlərimizin açıq olması, dünya dövlətləri ilə geniş iqtisadi və mədəni əlaqələrimiz səbəbindən bu epidemiya ölkəmizin də çağırılmamış qonağı oldu.

Hələ dünya dövlətlərində epidemiya yenicə başlanandan "Mübarizədə əsas məsələlərdən biri vaxt məsələsidir. Biz vaxtı nə qədər daraltsaq, nə qədər az vaxt çərçivəsində işləri görsək, xəstəliyə qarşı mübarizədə o qədər uğur qazana bilərik", - deyən dövlət rəhbərimizin tapşırığı ilə ölkəmizdə həyata keçirilən tədbirlər, bu problemin aradan qaldırılması üçün dövlət tərəfindən ayrılan vəsait, bunun ardınca koronavirusla mübarizəyə dəstək fondunun yaradılması, ilkin olaraq dövlət başçımızın atdığı addımla bu fondun qısa zaman ərzində zənginləşməsi, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın yaradılması, alınan laboratoriyalar, tibbi avadanlıq və preparatlar, Bakıda yeni klinik xəstəxananın koronavirus xəstələrinin müalicəsi üçün istifadəyə verilməsi, yeni modultipli xəstəxanaların qurulmasına başlanılması, Sumqayıt Kimya Sənaye Parkında tibbi maska istehsalı müəssisəsinin açılması və digər önləyici tədbirlər Almaniya, İtaliya, İspaniya, Fransa, Amerika Birləşmiş Ştatları kimi inkişaf etmiş dövlətləri pandemiya ilə mübarizədə geridə qoydu.

Bütün bunlar hələ illər öncə söylənmiş "Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam " vədini hər bir Azərbaycan vətəndaşına bir daha xatırlatmaqla təsdiq etdi ki, bütün çətinliklərdə - harada bu və ya digər səbəbdən, fəlakətdən əziyyət çəkən vətəndaş varsa, dövlət başçısı ordadır, vətəndaşın yanındadır. Dövlətin siyasətinin mərkəzində insan amili dayanır. Pandemiya ətrafında cərəyan edən hadisələr digər əsas bir məsələni də gündəmə gətirdi. Digər məsələ millət yanğısı idi ki, içdən gələn bu hissi dövlət başçımızın üzündə, sadəcə, baxanlardan fərqli olaraq baxıb görməyi bacaranlar çox gözəl duya bildi. Prezidentimizin ölkə vətəndaşları üçün bu yanğısını ilkin olaraq Novruz bayramı münasibətilə xalqı təbrikində gördük. O nitqdə hərilki bayram əhval-ruhiyyəsi yox idi. Ölkəmizin ötən bir ildə əldə etdiyi uğurlar, qazanılan nailiyyətlər sadalansa da, çox təəssüf ki, təbrikin sonu əvvəlki illərdəkinə bənzəmirdi. Prezidentimiz böyük yanarlıqla deyirdi: "Əziz həmvətənlər, bacılar və qardaşlar, dünya yeni dövrə qədəm qoyur. Bu dövrün xüsusiyyəti ondan ibarətdir ki, bilinmir bu xəstəliyin sonu nə vaxt olacaq və bu xəstəlik hansı fəsadlara gətirib çıxaracaq. Ona görə bir daha bütün Azərbaycan xalqını həmrəyliyə, məsuliyyətə dəvət edirəm. Əminəm ki, biz birlikdə bütün sınaqlardan üzüağ çıxacağıq".

Daha sonra Prezidentimizin televiziya müsahibəsində, xalqa bu bəladan qorunmaqla bağlı dəfələrlə etdiyi müraciətlərdə, dövlət başçımızın təşəbbüsü ilə keçirilən Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşündə, sədrliyi ilə ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirədə, pandemiya ilə bağlı videogörüşlərdə, açılış tədbirlərində hər dəfə bu narahatlığın doğurduğu yanğını açıqca gördük: "Biz hər zaman olduğu kimi, Azərbaycan xalqının problemlərini həll edirik və həll edəcəyik. İndiki vəziyyətdə, koronavirus dövründə Azərbaycan dövlətinin addımları bir daha onu göstərir ki, bizim üçün Azərbaycan xalqının sağlamlığı, təhlükəsizliyi, rifahı hər şeydən üstündür və buna nail olmaq üçün biz istənilən addıma gedəcəyik. Heç kimin bu məsələ ilə bağlı şübhəsi olmasın".

Məlum olduğu ki, pandemiya dövründə müxtəlif sahələrdə işlərin dayandırılması yüzlərlə insanı olmazın çətinlikləri ilə üz-üzə qoydu. Dövlətimizin başçısı buna da çıxışlarından birində münasibət göstərərk deyirdi: "Əgər biz koronavirusun ən çox təsir etdiyi sahələri və eyni zamanda, fərdi sahibkarlıqla məşğul olan insanları nəzərə alsaq, 600 min insan bu vəziyyətdən daha çox əziyyət çəkir, çünki orada iş yerləri bağlanıb. Sahibkarlara mənim çağırışım, birmənalı tələbim artıq hər kəsə bəllidir ki, bu dövrdə heç bir ixtisara getmək olmaz, ancaq biz sahibkarlara da imkan yaratmalıyıq ki, onlar da əziyyət çəkməsinlər. Azərbaycan 600 min işçini, o cümlədən fərdi sahibkarı dövlət hesabına maliyyələşdirəcək. Onların əməkhaqlarının əhəmiyyətli hissəsini dövlət öz üzərinə götürüb və artıq bu ödəmələr başlayır. O cümlədən tələbələrin problemləri, işsizlərə verilən müavinətin həcmi - bütün bunlar nəzərə alınır və 2,5 milyard manat bu məqsədlər üçün nəzərdə tutulub. Bu, çox böyük rəqəmdir. Bir daha demək istəyirəm ki, neft gəlirlərimiz azalıb, ancaq insanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı və rifahı bizim üçün hər şeydən üstündür. Biz bunu bir daha nümayiş etdiririk. Bütün Azərbaycan vətəndaşlarına bir daha çağırış edib demək istəyirəm: Məsuliyyətli olun, nizam-intizamı, qaydaları pozmayın, özünüzü, uşaqlarınızı, yaxınlarınızı qoruyun ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək! Biz birlikdə güclüyük!".

Ölkəmizdə pandemiya dövrü üçün hazırlanan sosial paketlər açıqlandı və icrasına başlandı: Birinci mərhələdə 600 min şəxsi əhatə edən birdəfəlik ödəmələrə start verildi. Ünvanlı dövlət sosial yardımı alan ailələrin sayı 80 minə çatdırıldı ki, bu da 330 min şəxsin təminatı demək idi. 65 yaşdan yuxarı 15 min tənha insana evlərində sosial xidmətlər göstərildi. 35-40 min aztəminatlı ailəyə ərzaq yardımı edildi. Aztəminatlı ailələrdən olan 24 min tələbənin təhsil haqlarının ödənilməsini dövlət öz üzərinə götürdü və bunun üçün 40 milyon manat vəsait ayrıldı. Elektrik enerjisi limiti 100 kilovat-saat artırıldı. Sahibkarlara dəstək proqramı həyata keçirildi, vergi ödəyicilərinə güzəştlər tətbiq olundu. Sonrakı mərhələdə isə daha bir yeni sosial paket hazırlanıb həyata keçirildi ki, bu, yuxarıda sadalananlar ilə birlikdə 2,5 milyon əhalini əhatə etdi.

Ümumilikdə isə labüd pandemiya dövründə bütün təbəqələrdən olan insanı düşünən dövlətimizin düzgün siyasəti nəticəsində hər bir Azərbaycan vətəndaşı bu bəla qarşısında əzmlə durmağı bacardı. Ölkəmizdə gündən-günə koronavirusa yoluxanlar ilə müqayisədə sağalanların dəfələrlə çox olmasını, ürək yanğısı ilə qarşıladığımız həyatlarını itirənlərin digər ölkələrlə müqayisəolunmaz göstəricisini nəzərə alaraq böyük qürur hissi ilə demək olar ki, kiçik ölkəmiz böyük ölkələrə örnək oldu. Biz birlikdə güclü olduq və pandemiyaya qalib gəldik. Ardınca isə bizim bir yumruq kimi bir birləşməyimiz yeni bir mərhələdə yeni gücə çevrildi.



nıb. Bu da müharibə yaşamış ölkələr arasında, belə demək mümkündürsə, bir bizim yeniliyimizdir. Çünki bir çox ölkələrdə belə praktika yoxdur. Biz bunu nə üçün edirik? Çünki bu, o ailələr qarşısında bizim mənəvi borcumuzdur və bu borcu imkan daxilində yerinə yetirməyə çalışırıq.

İkinci Qarabağ müharibəsində əlil olmuş 379 hərbçi ən müasir protezlərlə təmin edilib. Cəmi iki il keçməsinə baxmayaraq, İkinci Qarabağ müharibəsinə aid olan bu proqram tam yerinə yetirilib. Bu proqramın icrası mətbuatda da işıqlandırılıb. Hər kəs görə bilir ki, bizim qazilərimiz hətta futbol oynaya bilirlər. Əl protezləri daha mürəkkəb texnologiyaya malikdir. Mənə verilən məlumata görə, ən müasir texnologiyadan olan əl protezlərinin əl tutma funksiyası təqribən 40-a çatır. Yəni, biz öz sağlamlığını itirmiş soydaşlarımıza maksimum dərəcədə kömək göstərməyə çalışırıq. Əlbəttə ki, bu, yüksək texnologiyalı protezlər olduğu üçün onlar vaxtaşırı dəyişdirilməlidir. Bütün bu proqramlar da gündəlikdədir.

Dövlətimizin başçısının dəyərli fikirlərində biz postpandemiya və postmüharibə dövründə vətəndaşlarımıza göstərilən diqqət və qayğını görürük. Hansı ki, pandemiyanın ağır dövründən bizi çox qısa zaman, müharibədən isə iki il ayırır. Bu zaman kəsiklərində həyata keçirilən bu qədər tədbirlərin hər biri isə vətəndaş rifahına, ümumi-

## Dəmir yumruq ətrafında

Bu yeni mərhələ isə hələ pandemiya başa çatmamış, üstəlik virusun ən qızğın vaxtında başlandı. Sentyabrın 27-də ermənilərin azərbaycanlılara qarı yeni torpaq iddiaları irəli sürmələri nəticəsində səbr kasamızın dolması ilə başlanan Vətən müharibəsində bir qədər öncə birlik yumruğumuz dəmir yumruğa çevrildi və bütün xalq bu yumruq ətrafında yeni əzmlə birləşdi. Bu yumruq dövlətimizin başçısının yumruğu idi. Onun ətrafında birləşən isə milli ordumuz və Ali Baş Komandan cənab İlham Əliyevin əmrini gözləyən mübariz xalq idi.

Beləliklə sentyabrın 27-də ölkəmizdə İkinci Vətən müharibəsi başlandı. Bu müharibə 30 il əvvəl- Birinci Vətən Müharibəsində itirilmiş torpaqlarımızın geri alınmasına xidmət edirdi. 30 il əvvəl ölkəmizdə hakimiyyətdə olan səriştəsiz rəhbərliyin ermənilərə satdıqları torpaqları geri almaq üçün xalq öz Prezidenti ətrafında birləşərək mübarizəyə qalxmışdı. Bu, dünyada, eləcə də ölkəmizdə tüğyan edən pandemiya dövrünə təsadüf etsə də, tarixi an artıq yetişmişdi və bunun üçün pandemiyanın bitməsini gözləmək mümkün deyildi. Bu səbəbdən də xalqımız üçün yeni, həm də ağır bir mərhələ başlandı. İki müharibə bir-birinə qarışdı. İki düşmən bir-birinə qarışdı.

Biz həm müharibə meydanında, həm də yaşadığımız rayon, şəhər və kəndlərdə düşmənlərlə üz-üzə qalmalı olduq. Sözün həqiqi mənasında, qısa zamanda pandemiya yaddan çıxdı. Bütün diqqətlər pandemiyadan da dəhşətli düşmənə yönəldi.

Bu gündən yenə də dönüb 2020-ci ilə nəzər saldıqda görmək olur ki, virus 1-2 il ərzində azala bildi. Lakin digər virus-erməni virusu isə 30 il davam etmişdi. Bu gün də o virusdan hələ də yaxa qurtarmamışıq. Çünki bəlkə də dünyada erməni adlı virus qədər dəhşətli virus yoxdur ki, bu da bizim qoşuluşumuzdadır. Lakin ətrafında birləşdiyimiz dəmir yumruq bu virusun da parçalanmasına, kiçik zərrəciklərə çevrilməsinə səbəb oldu. Kiçik zərrəciklərin sonu isə Qarabağda qazandığımız Zəfərlə gəldi.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Milli Ordumuzun qəhrəman əsgərləri 44 günlük müharibə dövründə düşmənin başına dəmir yumruq endirməklə torpaqlarımızı bir-bir düşmən əsarətindən azad etdilər. Üçrəngli bayrağımızı qədim yurd yerlərimizdə dalğalandırdılar. Minlərlə şəhidimiz və sağlamlığını itirən qazimiz hesabına əzəli ata-baba yurdlarımız işğaldan











azad olundu.

44 günlük zaman kəsiyində Azərbaycan tarixi bir yol keçdi. 2020-ci ilə qədər dövlətimizin başçısının 17 illik fəaliyyətinin nəticəsi olan Qarabağ Zəfəri ötən illərdə bu qələbəyə necə hazırlaşdığımızı, torpaqlarımızın azad olunması üçün yolların necə axtarılmasını və tapılmasını ortaya qoydu. O yollar ki, dövlətimizin başçısı bunun üçün illərlə beynəlxalq təşkilatlara üz tutmuşdu, beynəlxalq kürsülərdən dünyaya çağırış etmişdi, lakin sülh yolu ilə torpaqlarımızı azad edə bilmədik. Çünki səsimizə səs verən olmadı. Sonuncu yol isə öz gücümüzə qaldı. Bu isə müharibə yolu oldu. Bəli, biz pandemiya dövründə müharibəyə başladıq. Və qalib xalq olaraq adımızı tarixə yazdırdıq.

Bu gün, yeni 2023-cü ildə pandemiya və müharibədən ötən iki ildə postpandemiya və postmüharibə dövrünün Azərbaycanı kimi uğurlarımızdan söhbət açarkən bu söhbətə qürurumuz da qarışır. Çünki biz iki böyük hadisəni uğurla geridə qoymuşuq.

## 2021-ci ildə 3 min, 2023-cü ildə isə ən azı 1500 mənzil

Dövlətimizin iqtisadi gücü pündemiya dövründə vətəndaşını çətinlikdən xilası ilə, Vətən müharibəsindən dərhal sonra isə şəhid və qazi ailələrinə dəstəyi ilə özünü təsdiqlədi. Bu barədə yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsi zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: Bir istiqamət də şəhid ailələri və müharibə əlillərinə dəstəklə bağlıdır. Keçən il bu istiqamətdə də önəmli addımlar atılmışdır, bu kateqoriyadan olan 1500 ailəyə dövlət tərəfindən mənzillər verildi. 2021-ci ildə isə 3 min mənzil verildi. Bu il də ən azı 1500 mənzil veriləcək. Beləliklə, hələ növbədə duran bu kateqoriyadan olan insanların hamısına dövlət tərəfindən mənzillər veriləcək.

Məlumat üçün deyə bilərəm ki, bu günə qədər 13 min ailə bu imkanlardan faydalalikdə isə insan amilinə hesablanmış addımlardır.

## 60 min ailə özünüməşğulluq proqramına cəlb edilib

İstər pandemiyadan və müharibədən əvvəl, istər də hazırkı postpandemya və postmüharibə dövründə özünüməşğulluq proqramlarına ölkəmizdə xüsusi diqqət göstərildiyi məlumdur. Çünki özünüməşğulluq müvəqqəti işsiz əhalinin məşğulluğuna, nəticədə isə sosial rifahına xidmət edir.

Dövlət başçısının ”Sosial sahə çoxşaxəli sahədir. Məsələn, biz buraya özünüməşğulluq proqramını da əlavə edə bilərik. Bu, həm sosial, həm iqtisadi sahədir. Çünki bu, kiçik biznesi təşviq edən sahədir.

*Ardı Səh. 10*

# Postmüharibə və postpandemiya dövrünün AZƏRBAYCANI

Əvvəli Səh. 9

Ancaq mən buna daha çox sosial sahə kimi baxıram. Bir neçə il ərzində belə bir təşəbbüs irəli sürüldü. Çox böyük maraq doğurdu və bu gün 60 min ailə özünüməşğulluq proqramına cəlb edilib. Hətta biz beynəlxalq maliyyə institutlarını da bu proqrama cəlb etmişik. Bu, həm sosial, həm iqtisadi, həm iş yerlərini, yəni, bütün bu sahələri əhatə edən bir sahədir. Ona görə bu il də istisna olmayacaq. Çünki bir daha demək istəyirəm, Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik. İmkan daxilində bu il də bu proqramlar icra ediləcək" kimi dəyərli fikirləri bu sahənin ölkəmizdə daha da genişləndiriləcəyini, əhalinin rifah halına xidmət edəcək tədbirlərin davamlı olacağını təsdiqləyir.

Ölkə rəhbərinin yerli televiziya kanallarının jurnalistlərinə verdiyi müsahibədə bu barədə digər dəyərli fikirləri ilə də tanış olduq: Mən 2022-ci ilin yekunları ilə bağlı geniş danışsam, onda qalan suallara yer qalmayacaq. Hesab edirəm ki, ilk növbədə, bizim iqtisadi nailiyyətlərimiz haqqında demək lazımdır. Çünki bu, sıradan olan məsələ deyil. Dünya postpandemiya dövrünə hələ təzə-təzə uyğunlaşır. Bir çox ölkələrdə, o cümlədən Azərbaycanda kəskin qiymət artımı müşahidə olunur. Bizim də iqtisadiyyatımız dünya iqtisadiyyatının bir parçası olduğu üçün əfsuslar olsun ki, biz də bu mənfi təsirə məruz qalmışıq. Ancaq biz çalışırıq ki, dünya üçün bu böhranlı vəziyyəti xalqımız üçün sosial layihələrlə, sosial proqramlarla yüngülləşdirək. Bu yaxınlarda imzaladığım çox geniş sosial paket bir daha bunu göstərir. Yəni, müharibədən təzə çıxmış ölkə, özü də ərazisinin 20 faizi tamamilə dağılmış vəziyyətdə olan ölkə əgər sosial sahəyə bu qədər vəsait ayırırsa, deməli, bizim sosial siyasətimiz dəyişməz olaraq qalır və əlbəttə ki, bizim iqtisadi gücümüzü göstərir. Çünki biz bütün işləri öz hesabımıza edirik.

## Minimum əməkhaqqı 345, minimum pensiya 280 manata çatdırıldı

Postpandemiya və postmüharibə dövründə əhalinin sosial rifahı naminə atılan zəruri addımlardan biri də minumum əmək haqqının və pensiyanın müəyyən həddə qaldırılması oldu. Yəni çox yaxın keçmişi təşkil edən pandemiya və müharibə dövrünün ardınca bu kimi artımlar yenə də ölkəmizdə insan amilinə verilən dəyəri təsdiqləyir. Digər tərəfdən isə bütün dünyada, eləcə də olkəmizdə baş verən inflyasiyanın müəyyən dərəcədə qarşısını alır. Bu barədə də dövlət başçısının müsahibəsində maraqlı məqamlar var: Bəli, mən qeyd etdiyim kimi, inflyasiya bu gün bütün dünyada ciddi bir problemə çevrilib. Hətta inkişaf etmiş Qərb ölkələrində ki, orada adətən inflyasiya bir faizdən, yəni, bir və maksimum 1,5 faizdən yüksək olmurdu, bu gün inflyasiya 10 faizi üstələyir. Azərbaycandakı inflyasiya idxal edilmiş inflyasiyadır.

Çünki biz əlbəttə, dünya iqtisadiyyatının bir parçası olduğumuz üçün bir çox malları idxal edirik və bu istiqamətdə də çalışırıq ki, idxalı əvəzləyən yerli istehsal daha geniş vüsət alsın. Amma hələ təbii ki, idxaldan asılıyıq. Ona görə, əgər belə demək mümkündürsə, inflyasiya Azərbaycana idxal edilib. Keçən ilin nəticələrinə görə 13,9 faiz təşkil edib. Yəni, bu idxal edilmiş inflyasiya ilə bizim mübarizə imkanlarımız kifayət qədər məhduddur. Halbuki keçən il aparılan islahatlar nəticəsində, o cümlədən biznes mühitinin yaxşılaşdırılması, sağlam rəqabətin təşviqi, inhisarçılığa qarşı mübarizə, həmçinin gömrük sistemində olan pozuntuların aradan qaldırılması, kadr islahatları, əlbəttə ki, burada da müsbət rol oynayacaq. Ancaq bununla paralel olaraq, biz, ilk növbədə, qeyd etdiyiniz kimi, sosial rifah haqqında nəinki düşünməli idik, praktiki addımlar atmalı idik. Ona görə minimum əməkhaqqının 15 faiz artması əlbəttə ki, inflyasiyanın fəsadlarının yumşaldılmasına hesablanıbdır və minimum əməkhaqqı artıq 345 manata çatıbdır. Bu, bizi qane edir? Əlbəttə ki, yox. Amma biz imkan daxilində öz addımlarımızı atırıq. Çünki bir daha demək istəyirəm, bizim əsas xərclər istiqaməti Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək və ordu potensialımızı gücləndirməkdir. Bu iki əsas prioritet bizim üçün uzun illər prioritet kimi qalacaq.



Eyni zamanda, pensiyaçıların sosial təminatının yaxşılaşdırılması üçün minimum pensiya da 16,7 faiz artırıldı, 280 manata çatdı və bu proses davam etdiriləcək. Yəni, son illərin təcrübəsi onu göstərir ki, bu, bir dəfə atılan addım deyil, bu, müntəzəm olaraq atılan addımlardır və iqtisadi imkanlarımız artdıqca, əlbəttə ki, gələcəkdə də buna oxşar addımlar atılacaq.

## Biz heç kimdən yardım almamışıq

Dövlətimizin başçısının müsahibəsində toxunduğu əsas məsələlərdən biri də postmüharibə dövründə ölkənin öz gəliri, öz gücü hesabına yaşaması, Qarabağda bərpa işlərinin həyata keçirilməsi ilə bağlı oldu: Mən bunu artıq səsləndirmişəm. Biz müharibədən sonra heç kimdən yardım almamışıq. Sadəcə olaraq, iki ölkənin - Özbəkistanın və Qazaxıstanın prezidentləri Füzulidə iki məktəbin tikintisinə özləri təşəbbüs göstərmişlər. Bundan başqa biz heç bir yerdən bir manat yardım almamışıq. Ona görə iqtisadi müstəqillik mütləq güclənməlidir və keçən il bizim ümumi daxili məhsulumuz rekord həddə çatıb. Son dəqiqləşdirilmiş məlumata görə 134 milyard manata çatıb. Bu da təxminən 80 milyard dollara bərabər olan rəqəmdir. Əlbəttə ki, həm də xarici ticarət artıb, 50 milyard dolları ötüb. Xarici ticarətin müsbət saldosu 25 milyard dollar təşkil edir. Yəni, iqtisadiyyatla məşğul olanlar bilirlər ki, bu nə deməkdir və eyni zamanda, bizim xarici borcumuz azalıb. Həm mütləq rəqəmlərlə - 7 milyard dollardan aşağıdır, həm də ümumi daxili məhsula nisbətdə təbii ki, kəskin azalıb. Əgər keçən ilin əvvəlində xarici borcumuz ümumi daxili məhsulun 17 faizini təşkil edirdisə, keçən ilin yekunlarına görə bu, 9,5 faizə düşüb. Yəni, müqayisə üçün deyə bilərəm ki, bir çox inkişaf etmiş ölkələrdə bu, 100 faiz, hətta 130-150 faizdir. Bu nədir? Bu odur ki, biz iqtisadi cəhətdən müstəqilik, əgər biz indi istəsək, yenə də beynəlxalq maliyyə qurumları ilə kreditlərin cəlb edilməsi üzrə işlərə başlaya bilərik, əslində başlamışıq. Çünki həm Dünya Bankı ilə, həm Avropa Yenidənqurma və İnkişaf Bankı ilə icraatda olan layihələr demək olar ki, başa çatır. Dünyanın hər iki aparıcı maliyyə qurumunun yüksəkvəzifəli nümayəndələri keçən il Bakıda olmuşlar və aparılan müzakirələr zamanı yeni istiqamətlər müəyyən edilib. Yəni, mən tam əminliklə deyə bilərəm ki, biz limitsiz xarici kreditlərin cəlb edilməsində heç bir problem görməyəcəyik. Amma hələ ki, buna böyük ehtiyac yoxdur. Ona görə iqtisadi və sosial sahə həmişə paralel getməlidir. O ölkələrdə ki, ancaq iqtisadi sahəyə diqqət verilir və sosial sahə kənarda qalır, orada insanlar iqtisadi islahatlardan çox böyük əziyyət çəkirlər. Bizim isə məqsədimiz ölkəni gücləndirmək və hər bir vətəndaşın həyatını daha da yaxşı etməkdir.

## Müharibə bitsə də, mübarizə hələ davam edir

Prezident cənab İlham Əliyev: İkinci Qarabağ müharibəsindən sonra bizim əsas vəzifəmiz şanlı hərbi Qələbəmizi siyasi müstəvidə də təsdiqləmək idi. Biz dərhal işə başladıq. Çünki yaxşı başa düşürdük ki, əgər biz siyasi sahədə bu Qələbəni təsdiqləməsək, bu Qələbəni dünya ictimaiyyətinə qəbul etdirməsək, müəyyən problemlərlə üzləşə bilərik. Dərhal fəal işə başladıq və hesab edirəm ki, bu gün - artıq müharibədən iki il keçəndən sonra tam əminliklə demək olar ki, müharibənin nəticələri dünya tərəfindən qəbul edilib. Azərbaycanın haqlı olması bir daha təsdiqlənib və müharibənin sonunda yaranmış vəziyyəti biz daha da möhkəmləndirməliyik, yəni, öz mövqelərimizi daha da gücləndirməliyik. Son iki il ərzində həm beynəlxalq əlaqələr müstəvisində, həm ölkə daxilində biz istədiyimizə nail ola bilmişik.

Bu gün sirr deyil ki, Azərbaycan dünyada çox etibarlı və ciddi tərəfdaş kimi tanınır. Azərbaycan o ölkələrdəndir ki, öz sözünü açıq deyir, müstəqil siyasət aparır. Əlbəttə ki, bunun təməlində həm hərbi gücümüz, həm də şanlı Qələbəmiz dayanır. Çünki mən bunun canlı şahidiyəm ki, müharibədən sonra onsuz da Azərbaycan siyasətinə olan müsbət münasibət daha da artdı, yəni, bizə olan rəğbət daha da artdı. Çünki dünyanın siyasi elitası yaxşı başa düşür ki, biz bu Qələbəni nəyin bahasına əldə etdik, hansı risklərə getdik, hansı qüvvələrlə mübarizə aparırdıq və bu gün də aparırıq. Yəni, müharibə bitsə də, mübarizə hələ davam edir və əminəm ki, biz qalib gələcəyik. Çünki biz haqq yolundayıq və bizim həm hərbi, həm siyasi gücümüz, o cümlədən iqtisadi müstəqilliyimiz gücümüzü əlbəttə ki, artırır.

Bəli, postpandemiya və postmüharibə dövründə yaşasaq da, hələ də hər iki tərəfdə mübarizələrimiz davam edir. Pandemiya hələ də tamamilə bizi tərk etməyib. Ona görə də ayıq-sayıq olmalı, özümüzü, ətrafımızı qorumalıyıq ki, bu çağırılmamış qonaq qapılarımızı açıq yenə yuxarı başlarda əyləşməsin.

Vətən müharibəsi bitsə də, dövlətimizin başçısının dediyi kimi, mübarizə hələ də davam edir. Çünki Ermənistan 10 noyabr 2020-ci ildə ağ bayraq qaldırıb təslim olduğu vaxt Rusiya, Azərbaycan və Ermənistan arasında bağlanan üçtərəfli Bəyannamədə üzərinə götürdüyü öhdəliyi həyata keçirməkdən boyun qaçırır. Bu, Naxçıvan Muxtar Respublikası ilə bağlı bənddir. Nə qədər ki, Ermənistan öhdəlikdən boyun qaçırır, mübarizəmiz davam edəcək. Çünki bu mübarizənin sonunda əsaslı nəticələr dayanır. Bu nəticələrdən Ermənistanın özü də bəhrələnə bilərdi. Lakin hansısa bir qruplaşma erməni xalqının yaxşı yaşamasının qarşısını almaqdadır. Lakin onların istəyindən asılı olmayaraq Zəngəzur dəhlizi reallaşacaqdır.

***Mətanət Məmmədova***

***P.S. Postpandemiya və postmüharibə dövrünün bəzi məqamlarına nəzər salmaqla ölkəmizin nailiyyətlərindən söhbət açdıq. Lakin uğur və nailiyyətlərimiz haqqında danışdıqlarımızdan dəfələrlə çoxdur. Bir qəzet yazısına yox, onlarla belə yazılara sığmayacaq dərəcədə.***

# Ərzaq inflyasiyası azalacaqmı?



**Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının bu yaxınlarda dərc edilmiş yenilənmiş məlumatlarına əsasən, ötən ilin noyabr-dekabr aylarında bitki yağlarının, dənli bitkilərin, ətin və bir sıra digər ərzaq məhsullarının qiymətlərində davamlı azalma tendensiyası müşahidə olunub. Buna baxmayaraq, ərzaq məhsulları inflyasiyasının səviyyəsi hələ də kifayət qədər yüksəkdir və bu mənfi hal dünyanın bir çox ölkələrində hələ də hiss olunur.**

Etiraf edək ki, ərzaq qiymətlərinin yüksək olması əksər postsovet ölkələrində, o cümlədən Azərbaycanda bir nömrəli problem olaraq qalmaqdadır. Dəfələrlə qeyd olunub ki, inflyasiyaya, qiymət artımına təsir edən səbəblərdən başlıcası idxal inflyasiyasıdır, yəni xarici amillərin təsiri ilə bahalaşma müşahidə olunur. Təəssüf ki, qiymətərin artımına qlobal inflyasiya faktoru ilə yanaşı, bir sıra yerli faktorlar da öz təsirini göstərməkdədir. Sözsüz ki, kənd təsərrüfatı məhsullarının şəhərlərə çatdırılması üçün səmərəsiz logistika belə mənfi təsirlərlə hər zaman yadda qalan olur.





Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının yeni sorğusunda qeyd olunduğu kimi, ötən ilin mart ayından etibarən dünya üzrə ərzaq məhsullarının qiymətlərində cüzi azalma tendensiyası 2022-ci ilin dekabrında daha da güclənib. 2022-ci ildə ərzaq məhsullarının qiymətləri 2021-ci illə müqayisədə 14,3% artıb ki, bu da bir il əvvəlki qiymətindən 1% aşağıdır. Bununla belə, BMT-nin profil strukturuna əsasən, ötən ay ərzaq qiymətləri indeksi 132,4 bənd təşkil edib ki, bu da noyabr ayı ilə müqayisədə artıq 1,9% aşağıdır. Bu tendensiya bitki yağlarının dünya qiymətlərinin kəskin ucuzlaşması, həmçinin dənli bitkilərin, mal əti və quş ətinin bir qədər ucuzlaşması ilə əlaqədar olub. Qiymət indeksində ən çox azalma bitki yağlarında müşahidə olunub. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı ekspertlərinin fikrincə, buna palma, soya, kolza və günəbaxan yağlarının dünya kotirovkalarının aşağı düşməsi, habelə noyabr-dekabr aylarında müşahidə olunan xam neftin qiymətinin azalması kömək edib.





Ərzaq təhlükəsizliyi üçün qlobal risklər hələ də kifayət qədər yüksəkdir. Xatırlatmaq yerinə düşərdi ki, ötən ilin sonundan dünya bazarında düyü, qarğıdalı, donuz əti, qoyun əti və süd məhsullarının qiymətləri bahalaşmaqda davam edir. Ümumiyyətlə, əsas ərzaq məhsullarının qiymətləri hələ də gözlənildiyindən belə çox yüksək səviyyədə qalmaqdadır. Yenə də xarici amillərin təsirini nəzərə almamaq mümkün deyil. Dünyada baş verən proseslər öz təsirini göstərməyə bilməz. Xüsusilə diqqətə çatdıraq ki, geosiyasi münaqişələr səbəbindən 2023-cü ildə ərzaq tədarükünün logistikasında qeyri-müəyyənlik hələ də hökm sürür.

Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının ötən il dərc olunmuş çoxsaylı proqnozlarına görə, azot və fosfat gübrələrinin yüksək qiymətləri, keçən ilki taxıl məhsullarının tədarükündə uğursuzluq, habelə Ukrayna və Rusiyanın kənd təsərrüfatı məhsullarının ixracı ilə bağlı çətinlikləri 2023-cü ildə taxıl və digər məhsulların qiymətlərinin yüksək olacağı riskini bir qədər də artırır. Çörək və digər un məmulatları ilə yanaşı, heyvan və quş əti üçün yemin də baha olması yumurtanın, ət və süd məhsullarının bahalaşmasına əsaslı zəmin yaradır. Bütün bunlar, ilk növbədə, ərzaq bazarının şaxələndirilməməsi, kənd təsərrüfatı sənayesində kifayət qədər emal gücü olmayan və idxalı əvəzləmə səviyyəsinin aşağı səviyyədə olduğu az inkişaf etmiş ölkələr üçün riskləri daha da artırır. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı və BMT-nin digər ixtisaslaşmış qurumlarının məlumatına görə, ümumilikdə 2019-cu ildən etibarən pandemiyadan əvvəl dünyada ac insanların sayı 150 milyon nəfər artaraq 830 milyonu keçib.

Təhlil

Ərzaq təhlükəsizliyinin səviyyəsi baxımından Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı ekspertləri Azərbaycanı nisbətən çiçəklənən, postsovet regionunda yüksək mövqe tutan ölkə kimi təsnif edirlər. Müstəqilliyin üç onilliyi ərzində respublikada kifayət qədər inkişaf etmiş aqrar-sənaye kompleksi formalaşıb və təxminən on il bundan əvvəl həmin təşkilar ölkəmizi aclığın ən aşağı səviyyəsi olan dövlətlər siyahısına daxil edib. BMT strukturunun hesablamalarına görə, 2013-cü ilədək Azərbaycanda heyvandarlıq və quşçuluq sahəsində idxalı əvəzləmə səviyyəsi 92 faizə, meyvə-tərəvəz, bostan və toyuq istehsalı isə hətta yüz faizə yaxınlaşıb. Yerli aqroparkların və iri fermer təsərrüfatlarının kütləvi əmtəə istehsalının yaradılması hesabına son illərdə aqrar idxalı əvəzləmənin orta göstəricisi sabit olaraq 70-80 faiz səviyyəsində qeydə alınıb.

Bununla belə, iki ilə yaxın davam edən qlobal ərzaq böhranı Azərbaycanın ərzaq təhlükəsizliyində bir sıra əhəmiyyətli boşluqları üzə çıxarıb. Respublika hələ də yağlı bitkilərin və taxıl bitgilərinin, ilk növbədə, ərzaq buğdasının idxalından böyük dərəcədə asılılıq var. Hələ də xarici idxal hesabına qarşılanma göz önündədir. Kərə yağı, sərt pendirlər, bəzi digər növ süd məhsulları, dəniz məhsulları və tropik meyvələrə olan daxili tələbatın da əsas hissəsini idxal təmin edir. Bu isə bahalaşmaya təsirsiz ötüşə bilməz.

Nəhayət, yerli emal və qida müəssisələri, quşçuluq təsərrüfatları xaricdən olan yem tədarükündən, yem əlavələrindən, vitamin məhsullarından, mal-qara üçün peyvəndlərdən, həmçinin xüsusi qablaşdırma, komponentlər, xüsusi avadanlıqlar, gübrələr və pestisidlərin idxalından çox asılıdır. Məhsul istehsalında asılılıqlar təsirsiz ötüşə də bilməz. Aydındır ki, bütün yuxarıda qeyd olunanlar üzrə idxal inflyasiyası faktoru təkcə idxal olunan ərzaq məhsullarının bahalaşmasına çox mənfi təsir göstərib, həm də yerli istehsalçıların xaricdən xammal və komponentlər almaq xərclərini artırıb.

2023-cü il üçün büdcə proqnozunda hökumət orta illik inflyasiyanı 6,9%, yəni ötən illə müqayisədə yarıbayarı qiymətləndirir. Bununla belə, AMB-nin son monitorinqinə əsasən, Azərbaycanda ev təsərrüfatlarının 81,9%-i yeni ildə daha da inflyasiya artımını gözləyir. Oxşar rəy bir çox ticarət və xidmət subyektləri tərəfindən ifadə edilir. ”Beynəlxalq ekspertlərin fikrincə, yalnız 2024-cü ildə bir çox ölkələrdə inflyasiya səviyyəsi tənzimləyicilərin proqnozlaşdırdığı dəhlizə qayıdacaq. Dünyada mövcud geosiyasi vəziyyət yüksək qeyri-müəyyənliklə xarakterizə olunur ki, bu da inflyasiya səviyyəsinin proqnoz dəhlizlərindən yüksək olacağı riskini özündə saxlayır”, deyə AMB-nin son bəyanatında bildirilir.

Orta illik inflyasiyanın dövlət büdcəsinin proqnoz parametrlərinə uyğun olub-olmaması yalnız cari ilin ikinci yarısında bəlli olacaq, lakin çox güman ki, respublikanın ərzaq seqmentində növbəti qiymət artımının qarşısını almaq mümkün olmayacaq. O cümlədən, ötən ilin dekabrında və bu ilin yanvar ayının birinci ongünlüyündə mal ətinin də qiyməti bahalaşıb, qoyun ətinin də. Meyvə-tərəvəzin qiymətində də artım müşahidə olunmaqdadır. Daha çox istifadə olunan, istehlak olunan kartofun belə qiymətində nəzərəçarpacaq fərq diqqətdən yayınmır. Dənli bitgilərin də qiymətlərində artım var. Yağların qiymətlərində əhəmiyyətli dərəcədə artım nəzərə çarpır.

Dəfələrlə qeyd olunub ki, idxal inflyasiyası yerli bazarda qiymət artımına təsir edən neqativ amildir. Bununla belə diqqətə çatdıraq ki, bu təsir yeganə neqativ amil deyil. Beləki, bir çox hallarda bəzi sahibkarlar və satıcılar qlobal qiymət artımından sui istifadə edərək bazar qiymətlərini süni şəkildə şişirdirlər. Bu cür halların qarşısının alınmasının zəruriliyi dəfələrlə ən yüksək səviyyədə səsləndirilib. Bir sözlə, süni qiymət artımının qarşısı alınmadığı təqdirdə belə hallar da qiymət artımına əməllibaşlı təsir edə bilər. Süni qiymət artımının qarşısı birmənalı şəkildə alınmalıdır, əks halda qiymətlərin tənzimlənməsi barədə danışmağa da dəyməz.

Heç şübhəsiz ki, bazar iqtisadiyyatı şəraitində qiymətlərin aşağı salınması üçün mövcud reallıqlardan istifadə etmək gərəkir. Dəfələrlə qeyd olunub ki, qiymət məsələsi bazarın təklif, yaxud tələb bazarı olmasından asılıdır. Beləki, bazarda məhsul, yəni təklif olunan mallar tələbi üstələdiyi zaman, buna təklif bazarı deyirlər və bu zaman qiymətlər aşağı olur. Əksinə, tələb təklifi üstələdiyi halda, buna tələb bazarı deyilir və bu zaman qiymət artımı qaçılmaz olur. Elə bütün bunları nəzərə alaraq qeyd etmək lazımdır ki, qiymətlərin aşağı salınması üçün birinci növbədə məhsul bolluğu, yəni təklifin daha çox olması məqamına üstünlük vermək gərəkir. Yəni, qiymətin aşağı salınması üçün ilk növbədə bazar üsulları ilə buna təsir göstərmək, bir sözlə, təklifi artırmaq lazımdır. Bu məqsədlə Azərbaycanda ərzaq təhlükəsizliyinin gücləndirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilir. Artıq 2023-cü il dövlət büdcəsi xərclərinin strukturunda kənd təsərrüfatına investisiyalar 1 milyard 202 milyon manat təşkil edəcək ki, bu da ötən illə müqayisədə 20,5 faiz çoxdur. Çox sevindirici haldır ki, bu istiqamətdə bir sıra proqramlar həyata keçirilir. Artıq taxılçılıq sektorunda, o cümlədən Qarabağ bölgəsində kənd təsərrüfatının inkişafı hesabına məhsuldarlığın artırılmasına başlanılıb.

***İnam Hacıyev***

# “Leyli və Məcnun" operasının ilk səhnə həyatı

1908-ci ilin bu günü. Musiqi tarixində ilk muğam operası olan, eləcə də Yaxın və Orta Şərqdə ilk muğam operası oynanıldı. Yanvarın 12-də dahi Üzeyir Hacıbəylinin ”Leyli və Məcnun” operasının ilk dəfə nümayiş etdirildiyi gündür. Məlum olduğu kimi, Üzeyir Hacıbəylinin 1908-ci il yanvarın 12-də Bakıda Hacı Zeynalabdin Tağıyev teatrında göstərilən ”Leyli və Məcnun” operası ilə təkcə Azərbaycanda deyil, bütün Şərqdə opera sənətinin əsası qoyuldu. Bu əsərə zaman-zaman müraciət olunmuş, bu gün də opera Azərbaycan milli sənət əsəri olaraq böyük səhnələrdə oynanılır. 1908-ci il yanvarın 12-də, soyuq bir qış axşamında Tağıyev teatrında Şərqin ilk operası ”Leyli və Məcnun” 22 yaşlı Üzeyir bəy Hacıbəyli tərəfindən Azərbaycan xalqına bəxş edilmişdir. Elə bir insan yoxdur ki, bu məhəbbət əfsanəsinə böyük maraq və heyranlıqla tamaşa etməsin. Xalqın professional sənət nümunəsi olan ”Leyli və Məcnun”da iştirak etmiş müğənnilər, bu möhtəşəm əsəri müxtəlif quruluşlarda səhnəyə qoymuş rejissorlar, dirijorlar, xormeysterlər, rəssamlar, baletmeysterlər, konsertmeysterlər olmuşdur.

H.Sarabski ”Mahur-Hindi” muğamı üstündə ”Yandı canın hicri ilə vəcli-ruhi yar istərəm” qəzəlini elə məharətlə oxudu ki. Məcnun rolunun ilk ifaçısı olan Hüseynqulu Sarabskinin adı isə əbədi olaraq tarixə həkk olundu. Məcnunu oynamağa hazırlaşan Hüseynqulu Sarabski tez-tez Üzeyir bəylə görüşür, onun yaradıcılıq göstərişlərinə və məsləhətlərinə diqqətlə qulaq asırdı. Nəhayət, bir çox manea və çətinliklərdən sonra ”Leyli və Məcnun” operası 1908-ci il yanvarın 12-də tamaşaya qoyulur. İlk tamaşanın rejissoru Hüseynqulu Sarabski, ikinci rejissoru Hüseyn Ərəblinski, dirijoru Əbdürrəhim bəy Haqverdiyev idi. Üzeyir bəyin özü orkestrdə skripkada ifa edirdi. Qurban Pirimov isə sədəfli tarı ilə tamaşanı müşayiət edirdi. ”Leyli və Məcnun” operasının ilk tamaşası böyük müvəffəqiyyətlə keçmişdi. Ağzına qədər dolu olan salon qarşısında Məcnun rolunu oynayan H.Sarabski və başqa ifaçılar elə məharət göstərmişdilər ki, tamaşaçılar arasıkəsilməyən alqışlarla onları səhnənin qabağına çağırmışdılar. Tamaşaçılar bir ağızdan ”Məcnun” deyib, H.Sarabskini səhnədən buraxmaq istəmirdilər. İlk tamaşanın suflyoru Ə.Rzayev ”Teatr və Ərəblinski” adlı xatirəsində yazır ki, xor ”Şəbu-hicran”ı oxuyub qurtarandan sonra pərdə düşəndə, zaldan gurultulu alqış qopdu. Pərdə dübarə qalxanda, Məcnun - H.Sarabski ”Mahur-Hindi” muğamı üstündə Məhəmməd Füzulinin ”Yandı canın hicri ilə vəcli-ruhi yar istərəm” qəzəlini elə məharətlə oxudu ki, mən suflyor budkasında özümü unutmuşdum. ”İrşad” Məcnun rolunun ifaçısı ”müqtədir artist Sarabski”nin oyununu yüksək qiymətləndirir1908-ci il 15 yanvar tarixli ”İrşad” qəzetində tamaşa haqqında dərc olunmuş resenziyada isə Füzulinin ”Leyli və Məcnun” poemasının da dillər əzbəri olduğu vurğulanır və həmin əsərin musiqi dili ilə səslənməsi ”cavan mühərrir və musiqikar Üzeyir Hacıbəyov və realnı şagirdi Ceyhun Hacıbəyov ilə yanaşı, ”Nicat” Maarif Cəmiyyətinin böyük xidməti olduğu göstərilir.Tamaşanın özünə gəldikdə isə ”İrşad” qəzeti səhnələrin bir qədər şairanə olmasını tövsiyə edir və ayrı-ayrı aktyorların oyunlarına da münasibət bildirir. ”İrşad” Məcnun rolunun ifaçısı ”müqtədir artist Sarabski”nin oyununu yüksək qiymətləndirir və onun dəfələrlə alqışlandığını və öz peşəsinə olan məhəbbəti sayəsində müvəffəqiyyət qazandığını göstərir. Leyli rolunun ilk ifaçısı Əbdürrəhim Fərəcov ilk dəfə səhnəyə çıxdığı və ”İrşad” qəzetinin qeyd etdiyi kimi, ”belə mühüm bir vəzifəni öhdəsinə götürdüyünə görə” tamaşaçıların rəğbətini qazandığını vurğulayır. Opera gözlənilməz müvəffəqiyyət qazandı. Hüseynqulu Sarabski ömrünün 40 ilini teatr sənətinə həsr etdi. O, bu illər ərzində silsilə rollar yaratmaqla Azərbaycan teatr sənətinin səhnəsini zənginləşdirdi. Opera sənətinin fədailərindən biri olan Hüseynqulu Sarabski təkrarolunmaz məharətlə yaratdığı Məcnun obrazı haqqında daha sonra yazırdılar: ”Sarabskinin oyunu misilsiz idi. Onun nəğmələri bulaq kimi axır... Ağlaya-ağlaya, inildəyə-inildəyə öz məhəbbətindən, öz Leylisindən Füzulinin qəzəlləri ilə ölməz muğam üstündə danışır, insan qəlbinin ən incə damarlarına işləyən musiqi mənə o qədər təsir edirdi ki, hönkürtümü çətin boğa bilirdim. Lakin göz yaşlarım durmadan axırdı. Qəlbimi isə qəribə hisslər doldururdu. Zavallı, uğursuz, divanə Məcnun! Sarabski öz rolunu böyük məharətlə oynadı. O, Məcnun surətini səhnədə tam mənası ilə canlandırdı”. Bu maraqlı və yaddaqalan ifadən sonra Azərbaycan Musiqili Teatrının bütün sonrakı tamaşalarında Şeyx Sənan, Şah Abbas, Söhrab, Kərəm, Aşıq Qərib, Şah İsmayıl, Mərcan bəy, Sərvər Əsgər kimi baş qəhrəmanların maraqlı obrazlarını yaratdı.













## ”Qurban çal, son dəfə Leylini dinləmək istəyirəm”

Xüsusilə, onun Məcnun rolu əfsanəyə çevrilmişdi. Şübhəsiz ki, hamı o dövrdə ”Leyli və Məcnun” operasına baxmaq imkanına malik deyildi. Xüsusilə, Azərbaycanın uzaq kənd və şəhərlərində yaşayanların Bakıya gəlib operaya tamaşa etməsi müşkül idi. Odur ki, bir çox yerlərdən arasıkəsilmədən məktub və teleqramlar gəlir, hamı ”Leyli və Məcnun” tamaşasına baxmaq arzusunda olduğunu bildirir, acizanə surətdə xahiş edirdilər ki, Sarabski Lənkəran, Şəki, Gəncə, Şuşa və Tiflis şəhərlərinə qonaq gəlsin. Məhz buna görə Sarabski 1913-1918-ci illərdə öz sənət dostları ilə ”Leyli və Məcnun” tamaşasını göstərmək məqsədi ilə Qafqazın bir çox şəhərlərinə qastrol səfərlərinə çıxmışdı.

Böyük aktyor və nəğməkarın qəlbi ömrünün son dəqiqələrinədək Məcnun obrazı ilə yaşamışdır. 1945-ci il fevralın 16-da ölüm yatağında olarkən sənət dostları Qurban Pirimov və Leyli rolunun ifaçısı müğənni Həqiqət Rzayevanı yanına çağırmış və gözlərini Qurbana dikərək titrək səslə demişdir: ”Qurban çal, son dəfə Leylini dinləmək istəyirəm”. Qurbanın tarını, Həqiqətin səsini eşidən müğənni əbədi olaraq gözlərini yummuşdu. Xalq Cümhuriyyəti dövründə ”Leyli və Məcnun” operasının növbəti tamaşası 1919-cu il noyabrın 21-nə təsadüf edir. Artıq bir aya yaxın idi ki, Bakıda Azərbaycan Dövlət Teatrosu təşkil edilmişdir. 21 noyabr tarixli ”Azərbaycan” qəzeti həmin tamaşa haqqında yazaraq, onun ilk növbədə, zahiri cəhətdən fərqləndiyini, xora, pərdələrə, musiqiyə və baletə artıq əhəmiyyət verildiyinə oxucuların diqqətini çəkir. ”Leyli və Məcnun” operası ilə Azərbaycan professional bəstəkarlıq məktəbinin təməl daşı qoyuldu

Mənbələrdə göstərilir ki, Məcnun rolunu oynamaqla məşhurlaşan H.Sarabski xəstə olduğundan həmin rolda Məmmədtağı Bağırov, Leyli rolunda isə Hüseynağa Hacıbababəyov çıxış etmişlər. Bu iki aktyor sonralar opera sənətimizin inkişafında böyük rol oynamış, istər Azərbaycan bəstəkarlarının və istərsə də rus və Qərbi Avropa bəstəkarlarının operalarında çıxış edərək Azərbaycan SSR xalq artisti kimi yüksək və şərəfli ada layiq görülmüşlər. Həmin tarixli ”Azərbaycan” qəzeti H.Hacıbababəyovun Leyli rolundakı çıxışına, ümumiyyətlə, kişilərin qadın rollarındakı çıxışlarına mənfi münasibət bəsləyərək, Dövlət Teatrosunun rəhbərliyini bu, adətdən, birdəfəlik yaxa qurtarmağa və bu məsələyə ciddi yanaşmağa dəvət edir. Bununla belə, ”Azərbaycan” qəzeti H.A.Hacıbababəyovun səsində ”eşidənlərin ruhunu təsfir edə biləcək bir qüvvə” olduğunu da vurğulayır. M.T.Bağırovun isə səsinin müqabilində zəif bir Məcnun alındığını, Rza Darablının özünəməxsus bir məharətlə Nofəl rolunda Terequlovu təqlid etdiyini, lakin ”istər səs, istər vəziyyət hərəkəti ilə rolunu layiqi ilə oynaya” bildiyini qeyd edir.

Bütün bunlar bir daha sübut edir ki, dahi Üzeyir bəy Hacıbəylinin böyük fərəh hissi ilə qeyd etdiyimiz ”Leyli və Məcnun” operası XX əsrin əvvəllərindəki milli mətbuatımızın diqqət mərkəzində olmuş və bu maraq sonrakı illərdə də səngiməmişdir. Bu sənət əsəri sonralar çox Leylilər, Məcnunlar yetişdirdi. Dünyanın bir çox ölkələrində əsər müvəffəqiyyətlə oynanıldı. Tamaşa uğurları ilə Azərbaycan opera sənətini dünyaya tanıtdı. Bu gün Azərbaycan opera sənətində yetişən Leylilər, Məcnunlar sənət eşqi ilə Məhəmməd Füzuli və Üzeyir Hacıbəyli dünyasının ilhamı olan əsəri canlandırır, hər nəslin nümayəndəsinə onun sehrindən, cazibəsindən lirik-həzin lövhələri təqdim edirlər.

Üzeyir Hacıbəyli yaradıcılığı elə möhtəşəm qüvvədir ki, Azərbaycan musiqisinin qədim ənənələrini yerindən oynadaraq canlandırmış, xalq musiqi yaradıcılığının tükənməz imkanlarını aşkara çıxarmışdır. 115 il bundan əvvəl yaratdığı ”Leyli və Məcnun” operası ilə Azərbaycan professional bəstəkarlıq məktəbinin təməl daşını qoyan Ü.Hacıbəyli hərtərəfli istedadını, biliyini, bacarığını onun inkişafına yönəltmiş və bununla da, Azərbaycan musiqisinin yüksək zirvələr fəth etməsi və dünya miqyasında tanınması üçün zəmin hazırlamışdır. Onun yaratdığı sənət incilərinin hər biri musiqimizin şah əsərləridir desək, yanılmarıq.

***Zümrüd BAYRAMOVA***

# Qırmızı Makron

## Fransa müstəmləkəçiliyinə görə Əlcəzairdən üzr istəmək niyyətində deyil, niyə?









**Fransa prezidenti Emmanuel Makron sanki heç nə olmamış kimi davranır. Hesab edir ki, 132 illik müstəmləkəçilik dövrü üçün Əlcəzairdən üzr istəməməlidir. O, bu barədə "Le Point" nəşrinə müsahibəsində bildirib. Bununla belə, Makron əlcəzairli həmkarı Əbdülməcid Tebbun ilə Parisdə görüşərək ölkələrinin barışığını müzakirə edəcəyinə ümid etdiyini bildirib: "Mən bağışlanma istəməyə ehtiyac görmürəm, məsələ bu deyil, çünki bu jest bütün əlaqələri qıra bilər. Ən pisi odur ki, üzr istəyəcəyimizi və sonra ayrı yollarımıza gedəcəyimizi söyləmək olar".**

2021-ci il yanvarın sonunda fransız tarixçisi Benjamin Stor "Əlcəzairdə müstəmləkəçilik və müharibə haqqında" hesabat dərc edib. Sənəd 2020-ci ilin iyulunda Makronun verdiyi sərəncam əsasında hazırlanıb. Hesabatın 150 səhifəsində tarixçi tövbə və üzr istəməyi istisna etməklə, Fransa və Əlcəzairin barışması istiqamətində atılan addımları təqdim edib. "Müharibə var idi. Üzr istəsən də, istəməsən də, heç nəyi düzəldə bilməyəcəksən. Biz tarixə qayıtmalı və ona düzgün qiymət verməliyik", - deyə o vurğulayıb.

Bundan əlavə, Emmanuel Makron Əlcəzair rəhbərinə edilən dəvəti xatırladıb. "Ümid edirəm ki, prezident Tebbun 2023-cü ildə Fransaya gələ biləcək" deyib. Makron hesab edir ki, onun Əlcəzairə 2022-ci ilin avqustunda baş tutan səfərindən sonra başlayan ikitərəfli "dostluq" əlaqələri "dostluğun möhkəmləndirilməsi işini davam etdirməyə" imkan verəcək. Həmçinin, Makron "milyonlarla həmvətənlərinin iki ölkə arasındakı münasibətlərin tarixi ilə bağlı olduğuna" diqqət çəkib.

Əlcəzair parlamentariləri 15 ildən artıqdır ki, Əlcəzairdə soyqırımla eyniləşdirilən siyasətinə görə Parisdən üzr istəməsini tələb edən qanun qəbul etməyə çalışırlar. 2022-ci ilin oktyabrında Şimali Afrika ölkəsinin aparıcı siyasi qüvvəsi olan Əlcəzair Milli Azadlıq Cəbhəsi Fransadan 1961-ci ildə Parisdə dinc əlcəzairli nümayişçilərin fransız polisinin öldürülməsinə görə üzr istəməsini tələb edib.

2022-ci ilin avqustunda Emmanuel Macron beş ildə ilk dəfə Əlcəzairə səfər edib. Görüş 2021-ci ilin sonunda Əlcəzairin Parisdən səfirini geri çağırması ilə ölkələr arasında münasibətlərin soyuqlaşması fonunda baş tutub. Fərqlər əsasən keçmişin təfsiri ilə bağlıdır. Makronun əlcəzairlilərin öz tarixlərini yenidən yazdıqlarına dair iddiaları Əlcəzair hakimiyyətinin xoşuna gəlməyib.

Qeyd edək ki, Şimali Afrika ölkəsi 1962-ci ilin martında Evian sazişinin imzalanması ilə başa çatan səkkiz illik müharibədən sonra Fransadan müstəqillik qazanıb. Dəhşətdir, Fransa 132 il (1830-1962-ci illər) Əlcəzairi və əlcəzairliləri müstəmləkə altında saxlayıb. Milyonlarla insan öldürülüb. Həbs olunan, təqib edilən, ölkəni tərk edən, haqqı tapdalanan, hüquqları ayaqlar altına atılan və nəhayət soyqırımına məruz qalan əlcəzairlilərin sayı on milyonlarla ölçülür. Əlcəzairlilərin bir neçə milyonu Fransaya qul kimi sürülüb, bu gün də onların övladları Fransada yaşamaqdadırlar. Amma buna yaşamaq demək də mümkün deyil, çünki hüquqları fransızlarınkından qat-qat aşağıdır. Bu ölkənin ərəb əsilli vətəndaşları daha çox istismara məruz qalır, ağır işlərdə çalışdırılır.

### Enerjili Məğrib

Eyni vaxtda iki avropalı rəsminin - Fransa prezidenti Emmanuel Makron və Almaniyanın xarici işlər naziri Annalena Burbok müvafiq olaraq Məqrib ölkələrinə - Əlcəzairə və Mərakeşə getdiyi ötən ilin avqust ayını xatırlamaqla bəzi mətləblərə aydınlıq gətirmiş olarıq. Səfərlərin məqsədi siyasi və iqtisadi əlaqələri inkişaf etdirmək olub, eyni zamanda ziyarətçilər Ukraynada hərbi əməliyyatların başlamasından sonra Avropa İttifaqı (Aİ) ölkələrinin üzləşdiyi enerji böhranını aradan qaldırmaq üçün keçmişdə əzdikləri, istismar etdikləri, müstəmləkə altında inlətdikləri xalqın ayağına gedirdilər, onlara əl açmaq, əlcəzairlilərdən və mərakeşlilərdən sədəqə diləmək üçün qapılarına minnətçi düşmüşdülər. Qeyd etmək yerinə düşər ki, bu gün Əlcəzair ən böyük qaz ixracatçıları siyahısındadır, Mərakeş isə yaşıl hidrogen istehsalında potensial liderlərdən biridir.

### Yaddaş dalğaları üzərində

Fransa prezidenti Emmanuel Makronun Əlcəzairə üç günlük səfəri sözün əsl mənasında tarixi hadisələrlə yadda qaldı. Onun bu ölkəyə əvvəlki səfəri 2017-ci ilin dekabrında ilk prezidentlik müddətinin əvvəlində baş tutmuşdu. Bu beş il ərzində iki ölkə arasında münasibətlərdə çox şey baş verib. O cümlədən iki dəfə - 2020-ci ilin mayında və 2021-ci ilin oktyabrında Əlcəzair öz səfirini Parisdən geri çağırdı. Fərqlər əsasən keçmişin təfsiri ilə bağlıdır. Makronun əlcəzairlilərin öz tarixlərini elə yenidən yazdıqlarına dair iddiaları Əlcəzair hakimiyyətinin xoşuna gəlməmişdi. Prezident əlcəzairlilərin varlığını şübhə altına almaqla yanaşı ritorik bir sual da vermişdi: 1830-cu ilə qədər, yəni fransızlar gəlməmişdən əvvəl Əlcəzair mövcud idimi? Xatırladaq ki, 1830-cu ildən 1962-ci ilə qədər Əlcəzair Fransanın koloniyası statusunda idi. Əlcəzairlilər təxminən yeddi il yarım davam edən və müxtəlif hesablamalara görə 500 mindən 1 milyona qədər əlcəzairlinin və 15 mindən çox fransız əsgərinin həyatını itirdiyi qanlı müharibədə müstəqilliklərini qazanmış oldular. Beləliklə, iki ölkə arasındakı münasibətlər tarixi yaddaş və qarşılıqlı iddialarla yüklənir.

Baxmayaraq ki, Emmanuel Makron dəfələrlə keçmişin səhifəsini çevirməyə çalışıb. Son diplomatik qalmaqaldan sonra o, üzr istəməli oldu və Parisdəki səfir geri qaytarıldı. Üstəlik, cənab Makronun apreldə keçirilən prezident seçkilərindəki qələbəsindən sonra Əlcəzair prezidenti Abdelmajid Tebboun həmkarını təbrik etsə də bunu xəsisliklə edib. Həm də səfər üçün seçilən vaxt da çox simvolikdir - məhz bu gün Əlcəzairin fransızlara qarşı apardığı azadlıq müharibənin başa çatmasının və müstəqillik qazanmasının 60 illiyi qeyd edilir.

Fransa prezidentinin Əlcəzairdə qalması isə tarixə müraciət etmədən keçməyəcək. Baxmayaraq ki, onun proqramını elə tərtib etməyə çalışdılar ki, bu, təkcə keçmişə hörmət deyil, həm də gələcəyə baxmağa imkan versin. Belə ki, gəlişindən dərhal sonra prezident Makron əlcəzairli həmkarının müşayiəti ilə müstəqillik müharibəsində həlak olanların şərəfinə ucaldılmış Şəhidlər Memorialına gedib. Sonra hər iki prezident danışıqlar aparıb, jurnalistlərin suallarını cavablandırıblar. Makron cümə günü Əlcəzairin paytaxtında xristian və yəhudi qəbiristanlıqlarını ziyarət edib. Bu gəzinti Əlcəzair arxiyepiskopunun müşayiəti ilə baş tutub.

Rəsmi səfərin "diqqətin gənclərə və gələcəyə" yönəlməsini istəyən Fransa prezidenti gənc sahibkarlar və startaplarla da görüşüb, ardınca Abdelmajid Tebbun ilə növbəti nahar və Əlcəzairin əsas məscidini ziyarət edib. Səfərin son günündə Makron bir vaxtlar Fransa Əlcəzairinin iqtisadi mərkəzi olan Orana səfər edib. Orada o, Əlcəzairin yaradıcı ziyalıları və gənclərinin nümayəndələri ilə görüşmək istəyib. Amma üzləşdiyi etiraz aksiyası onun gəzintisinə son qoyub. Onun şəhər sakinləri ilə görüşmək istəyi ürəyində qalıb. Etirazçılar, "Müstəmləkələrə son", "Yaşasın azad Əlcəzair" şüarları səsləndiriblər. Mühafizəçilər dərhal Makronu hadisə yerindən uzaqlaşdırıblar. Budur, işğalçıya verilən cavab. Makronun timsalında fransız xalqı hansı üzlə dünənki müstəmləkəsindən, əzdiyi, istismar etdiyi xalqdan kömək umur? Həqiqətən, bunun üçün gərək üzün o qədər qırmızı olsun ki...

***V.VƏLİYEV***

# Nikol Paşinyan başını itirib, amma harada?

## Rusiyanı qıcıqlandıran erməni baş naziri ölkəsində ittiham obyektinə çevrilib




**Ermənistanın baş naziri Nikol Paşinyanın ölkəsinə məxsus KİV-lərə verdiyi müsahibəsi erməni cəmiyyəti ilə yanaşı, digər ölkələrin də siyasi-ictimai dairələri tərəfindən qeyri-ciddi qarşılanmaqdadır. Belə ki, erməni hökumətinin 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli bəyanatdakı bəndləri, eləcə də sonrakı müddətlərdə əldə edilmiş razılaşmalardakı qərarları icra etməməsi ilə yanaşı, Azərbaycana qarşı müxtəlif ittihamlar irəli sürməsi bu faktı daha da aktuallaşdırır.**

Bu arada Rusiyanın tanınmış politoloqu, "Milli müdafiə" jurnalının hərbi eksperti İqor Korotçenko bu mənada bir sıra məqamları maraqlı analitika ilə şərh edib. Onun sözlərinə görə, Paşinyan hələ də düşünür ki, Moskva İrəvan üçün "əlini oda salıb, oradan qızardılmış şabalıd" çıxaracaq. SİTAT: "Artıq iki ildən çoxdur ki, Ermənistan üçtərəfli bəyanatdakı bəndləri yerinə yetirmiş. Yəni İrəvan etməli olduğunu etmir və bu barədə heç düşünmür də".

### İqor Korotçenko: "Belə bir "boz ərazidə" bu və ya digər dəyişikliklər mümkündür və onlar heç bir halda beynəlxalq normalar nöqteyi-nəzərindən interpretasiya edilə bilinməz"

Hərbi ekspert Paşinyanın Moskvanın İrəvan üçün nə isə edə biləcəyi ətrafında fikirlərinin özünü doğrultmadığını deyib və qeyd edib ki, məhz buna görə də Nikol Paşinyanın isterik reaksiyaları get-gedə çoxalmağa başlayıb, erməni baş naziri Rusiyanın Ermənistanın qarantı olmadığını dilə gətirib.

Korotçenkonun sözlərinə görə, Ermənistan KTMT-nin üzvü olmasına rəğmən, bir müddət əvvəl, daha dəqiq desək, ötən il İrəvanda keçirilmiş sammitdəki yekun sənədlərə imza atmayıb. SİTAT: "Ermənistanın ona qarşı aqressiya törədildiyini apelyasiya etməsi qeyri-ciddi iddiadır. Belə ki, dövlət sərhədi mövcud deyil, sadəcə təmas xətti var ki, bu da sərhədin olmadığını - "boz ərazi" olduğunu göstərir. Belə bir "boz ərazidə" bu və ya digər dəyişikliklər mümkündür və onlar heç bir halda beynəlxalq normalar nöqteyi-nəzərindən interpretasiya edilə bilinməz".

### Rusiyalı ekspert Azərbaycan Prezidentinin fikirlərini belə şərh etdi

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev də ölkə jurnalistlərinə verdiyi müsahibəsində bu məqama toxunaraq vurğulayıb ki, Ermənistanla sərhədlər delimitasiya olunmayıb, prosesi də məhz Ermənistan uzadır. Ona görə də Azərbaycan istədiyi zaman bu ərazilərdə dəqiqləşdirmələr apara bilər.

Korotçenko da Prezident İlham Əliyevin qeyd etdiyi fikirlərini əsas gətirərək əlavə edib ki, İrəvan dövlət sərhədlərinin delimitasiyasından və demarkasiyasından imtina edir. SİTAT: "Ona görə də Paşinyanın bütün pretenziyalarını elə onun özünə ünvanlamaq lazımdır. Bu, tipik erməni davranışıdır - öz uğursuzluqlarının səbəbini kənardakılarda axtarmaq".

### "Erməni hakimiyyətinin anti-Rusiya ittihamları həm siyasi, həm də hüquqi baxımdan mənasızdır"

Ekspert daha bir maraqlı nüansa toxunaraq diqqət çəkib ki, Nikol Paşinyan özünü siyasi fərziyyəçi kimi aparır və ona görə də özünü qurban kimi göstərməklə əqrəbləri Rusiyaya tərəf çevirir. SİTAT: "Onlar vəhşiliklərdən və s. məsələlərdən danışırlar... Biz 2020-ci ilin noyabrında kütlənin Ermənistanın o zamankı parlament spikeri Ararat Mirzoyanı ayaqları ilə necə tapdaladığını xatırlayırıq. Ermənistanın ikinci şəxsi linç məhkəməsi ilə döyülmüşdü. Bu, erməni revanşistlərinin vəhşilikləri idi ki, dövlətin ikinci şəxsinə qarşı törətmişdilər! Bu, faktiki olaraq cənab Mirzoyana qarşı genosid aktı idi. Yeri gəlmişkən, bu olay Ermənistanın hüquqi vəziyyətinin və hüquqi mədəniyyətinin göstəricisidir. Əgər Paşinyan erməni revanşistlərinin əlinə düşsəydi, kütlə onu da belə vəziyyətə sala bilərdi. Amma o, Müdafiə nazirliyinin bunkerində gizlənirdi. Ona görə də erməni hakimiyyətinin anti-Rusiya ittihamları həm siyasi, həm də hüquqi baxımdan mənasızdır", deyə rusiyalı ekspert bildirib.

### Taqui Tovmasyan: "Əfsuslar olsun ki, ölkənin baş naziri belə bir mühüm informasiyadan məlumatsızdır, ya da özünü elə aparır ki, guya hər bir məsələ ilə bağlı şəxsən maraqlanır"

Bu arada, Ermənistan cəmiyyətində Nikol Paşinyana qarşı ittihamlar da artmaqda davam edir. Belə ki, "Joxovurd" nəşrinin qeyd etdiyinə görə, 2020-ci il müharibəsində və 2022-ci ildəki sentyabr sərhəd qarşıdurmasından sonra itkin düşmüş erməni hərbçilərinin axtarışlarına son qoyulub. Lakin Nikol Paşinyan ölkə KİV-lərinə verdiyi müsahibəsində bildirib ki,axtarışlar davam etdirilir. Adıçəkilən nəşr mövzu ilə bağlı Ermənistan parlamentinin insan hüquqları və ictimaiyyətlə əlaqələr daimi komissiyasının sədri Taqui Tovmasyandan münasibət öyrənib. Müsahib isə öz növbəsində təəssüflə deyib: "Əfsuslar olsun ki, ölkənin baş nazir belə bir mühüm informasiyadan məlumatsızdır, ya da özünü elə aparır ki, guya hər bir məsələ ilə bağlı şəxsən maraqlanır".

Tovmasyan erməni nəşrinə deyib ki, 44 günlük müharibə zamanı itkin düşmüş 200 nəfərin axtarışına hələ 2022-ci ilin yanvarından son qoyulub: "Yaxşı olardı ki, ölkənin birinci şəxsi mətbuat konfransına hazırlaşarkən müvafiq informasiyanı dəqiqləşdirməli idi. Bütün bunlar qeyri-ciddidir".

Beləliklə, Nikol Paşinyanın istər sülh prosesinin əldə olunmasına maneələr yaratması, istərsə də ölkəsi daxilində qeyri-ciddi şəxs kimi daha çox görünməyə başlaması bütün faktları tam çılpaqlığı ilə ortaya qoyur və bu reallıq bir daha sübut edir ki, Ermənistanın rəhbərliyi başda baş naziri olmaqla tamamilə başlarını itiriblər və bu kimi başitirmələr bütövlükdə erməni xalqına ciddi zərərlər vurur. Hər halda, isbatlar ortadadır...

*Rövşən RƏSULOV*

---



Elçin Bayramlı

# Sürüşdü birdən birə...

**Ölkə ərazisində müşahidə olunan qarlı hava şəraiti bəzi problemlərə səbəb oldu. Onlardan biri də çox sayda yol-nəqliyyat qəzalarının baş verməsidir. Adi vaxtlarla müqayisədə sayı dəfələrlə artmış olan bu qəzalarda ölən və yaralananlar da az olmadı. Bəs bunun səbəbləri nədir? Axı əksər ölkələrdə qar yağır, amma bu qədər qəza baş vermir. Bununla bağlı müxtəlif səbəblər göstərilir- avtomobillərin çoxunun texniki vəziyyətinin yaxşı olmaması, yol infrastrukturun bəzi yerlərdə normal olmaması, sürücülərin çoxunun qarlı buzlu yollarda lazımi təcrübəsinin olmaması və s.**

Əlbəttə, bu səbəblərin hər biri qızaların baş verməsində mühüm paya malikdir. Lakin qarlı havalarda ba verən qəzalarda daha bir faktor da təsir göstərir ki, bu da bizim sürücülərin qış təkərlərindən istifadə etməməsidir. Son günlərdə baş verən qəzaların çoxunda yalnız bu faktorun rolu var. Adi videokadrlardan da bu, aydın görünür. Normal halda isə, təlimata görə, avtomobilə yayda yay təkərləri, qışda isə qış təkərləri qoyulmalıdır. Bəs niyə sürücülərimiz bunu etmirlər? Bunun bir sıra səbəbləri var.

Əvvəla, bizdə yerli şin istehsalı olmadığından, şinlər xaricdən idxal olunur və nəticədə qiyməti də baha olur. Orta hesabla bir avomobilə əlavə təkər dəstinin alınması üçün azı 500 manat tələb olunur. Sürücülərin çoxunun da bu imkanı yoxdur.

Sovet dövründə Bakı Şin Zavodu fəaliyyət göstərirdi və orada müxtəlif şinlər istehsal olunurdu. Təəssüf ki, 90-cı illərin əvvəlində bu zavod da bağlandı. Təkər şinlərinin xammalının da öz ölkəmizdə olduğunu nəzərə alsaq belə bir zavoda indi daha böyük ehtiyac var. Əgər yerli istehsal olsa qiymətər xeli aşağı düşər.

Bundan başqa, qlobal istiləşmənin təsiri ilə Azərbaycanın əksər yerlərində normal qış keçmədiyindən və qarlı buzlu yol şəraiti olmadığından maddi imkanı olan sürücülərimiz də qış təkərləri alıb saxlamırlar, çünki buna ehtiyac görmürlər. Məsələn, Bakıda illərlə qar yağmır, yollar buz bağlamır deyə heç kim qış təkəri alıb saxlamaqda maraqlı deyil. Uzağı "4 fəsil "təkərləri alırlar ki, o da qış təkərini tam əvəz eləmir.

Daha bir səbəb isə, şəhərlərdə bina mənzillərində yaşayan şəxslərin 4 ədəd əlavə təkəri saxlamaq üçün yeri yoxdur. Bir çox ölkələrdə sırf bu işlə məşğul olan şirkətlər var ki, onların xüsusi anbarı olur və cüzi haqq ödəməklə sürücülər artıq təkərlərini orada saxlaya bilirlər. Bəzi ölkələrdə qış təkəri icarəsi ilə məşğul olan şirkətlər də var ki, müəyyən müddətə bu təkərləri icarəyə verir. Bizdə də bu xidmətlərin yaranmasına ehtiyac var.

Ümumiyyətlə, sürücülər qış mövsümündə mütləq qış təkərləri istifadə etməlidirlər. Əgər belə şinləri yoxdursa, onda avtomobili idarə etməməlidirlər. Çünki bu təkcə özləri üçün yox, digərləri üçün də ciddi təhlükə yaradır.

Bununla bağlı daha bir çıxış yolu da təkər zəncirlərinin istifadə edilməsidir ki, bu vasitələr sürüşmənin qarşısını alır, qarlı, buzlu yolda avtomobilin normal hərkətinə imkan verir. Belə vasitələrin dəsti 50-100 manat arasında dəyişir. Fikrimcə, hər sürücüdə belə komplekt ehtiyatı olmalıdır ki, kritik situasiyalarda vəziyyətdən çıxa bilsinlər.

Bununla yanaşı, yolların küçələrin qardan, buzdan təmizlənməməsinin də bu tip qəzaların sayının artmasında böyük rolu var. Yaxşı olar ki, şəhər kommunal təsərrüfatları bu işə məsuliyyətlə yanaşsınlar. Bunun üçün lazımi qədər texnika və ləvazimatlar alınmalıdır. Əgər yolların təmizlənməsi işləri normal yerinə yetirilsə qəzaların bir çoxunun qarşısını almaq olar.

Hər bir halda qarlı, buzlu yollarda hətta qış təkəri olan avtomobillər də ehtiyatlı idarə olunmalı, sürət həddi minimuma salınmalıdır. Buzlu yollarda ən zəruri hallar istisna olmaqla avtomobildən istifadə etməmək lazımdır. İnsan həyatı hər cür komfortdan üstündür.

# “Azərbaycan beynəlxalq nəqliyyat qovşağına çevrilib”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” istiqaməti çərçivəsində hazırlanıb*

## İlham Əliyev: Çox böyük nəqliyyat bazarında Azərbaycan ciddi aktora çevrilib

Son dövrdə dünyada baş verən proseslər Azərbaycanın nəqliyyat, tranzit və logistika əhəmiyyətini daha da gücləndirdi. Böyük İpək yolunun 3 ana yolundan biri və əsas arteriyası olan şimal xəttində Ukraynadakı müharibə ilə bağlı problem yarandığından Qafqazdan keçən orta qoluna diqqət artdı. Bundan əlavə Rusiya və Qərb arasında iqtisadi-ticari problemlər yarandığından Şimal-Cənub Dəhlizinin də əhəmiyyəti artdı. Belə bur şəraitdə Azərbaycan bu xətlərdə daşınma həcmlərinin kəskin artmasına hazırdırmı? Ölkəmiz bu imkanlardan necə bəhrələnə biləcək? Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına verdiyi müsahibədə bu məqamları izah edib.

Dövlət başçısı ölkəmizin tranzit və logistika potensialının buna hazır olduğunu bildirib: ”Biz nəqliyyat sahəsində layihələri uzun illərdir ki, icra edirik. Rusiya-Ukrayna müharibəsi bizim gördüyümüz işlərin əhəmiyyətini daha da artırmışdır. Ancaq bir daha demək istəyirəm, biz bu sahəyə uzun illərdir böyük vəsait qoyuruq, sərmayə qoyuruq. Beləliklə, Azərbaycan ərazisində həm Orta Dəhlizlə bağlı, həm Şimal-Cənub nəqliyyat dəhlizi ilə bağlı bütün əsas işlər yekunlaşıb. Sadəcə olaraq, biz indi dəmir yolunun bir hissəsini modernləşdiririk, xüsusilə Bakı-Yalama xəttini və ondan sonra Ələt-Astara xəttini də modernləşdirəcəyik. Çünki indiki vəziyyətdə dəmir yolunun imkanları gözlənilən yüklərin həcmi üçün məhduddur. Biz hesab edirik ki, təkcə Şimal-Cənub nəqliyyat dəhlizi ilə Azərbaycan ərazisindən mərhələli qaydada 15 milyon tondan 30 milyon tona qədər yük daşına bilər. Yəni, bu, çox böyük rəqəmdir. Hazırda Azərbaycanın bütün tranzit imkanları bunun kiçik bir faizini təşkil edir. Ona görə Şimal-Cənub nəqliyyat dəhlizi Orta Dəhlizlə rəqabət apara biləcək layihədir. Nəzərə alsaq ki, Rusiya-Ukrayna müharibəsinin başlanmasından sonra siz də qeyd etdiyiniz kimi,



bu, Rusiya üçün əsas prioritet məsələlərdən birinə çevrilib”.

Orta Dəhlizə gəldikdə isə, Prezident bildirib ki, bu istiqamətdə də ardıcıl siyasət aparılır: ”Bildiyiniz kimi, 5 il bundan əvvəl Bakı-Tbilisi-Qars dəmir yolunun açılışını etdik. Onu da bildirməliyəm ki, bu layihənin təşəbbüskarı da biz olmuşuq və bu layihənin icrası çox çəkdi. Çünki burada həm siyasi çətinliklər var idi, bəzi böyük Qərb ölkələri bu layihənin əleyhinə çıxış edirdilər və çox ciddi manelər törədirdilər. Səbəbi də ondan ibarət idi ki, bu, Ermənistanı faktiki olaraq kənarda saxlayan bir layihədir. Yəni, ermənipərəstlik bu layihənin icrasında da özünü göstərdi. Yəni, biz bir neçə il itirdik. Digər problem maliyyə çatışmazlığı idi. Çünki bu layihəyə vəsait qoymaq istəyənlər yox idi. Beynəlxalq maliyyə qurumlarına etdiyimiz müraciətlər cavabsız qalmışdır. Sadəcə olaraq, biz neftdən ilkin gəlirləri əldə edəndən sonra artıq özümüz bu layihəyə böyük vəsait ayırdıq. Bildiyiniz kimi, Gürcüstana 775 milyon dollar kredit verilmişdir və bu layihə reallaşdı. Hazırda biz bu layihənin genişləndirilməsi ilə ciddi məşğuluq. Keçən il artıq göstəriş verilmişdir və büdcədən 100 milyon dollardan çox vəsait ayrılacaq, onun bir hissəsi artıq ayrılıb. Biz bu dəmir yolunun ötürmə qabiliyyətini indiki 1 milyon tondan 5 milyon tona qədər çatdıracağıq. Amma bu da kifayət etməyəcək. Düzdür, Qərb istiqamətində digər imkanlar da var, o cümlədən Gürcüstan limanları. Biz, əlbəttə ki, onlardan da istifadə edirik, o cümlədən limanların biri Azərbaycana məxsusdur. Amma yenə də gözlənilən yüklərin əgər həcminə nəzər salsaq, görərik ki, bu da çatmayacaq. Çünki keçən il mənim Orta Asiya ölkələrinin rəhbərləri ilə çoxsaylı görüşlərim olub və deyə bilərəm ki, hər bir görüşdə bu mövzu müzakirə edilirdi.







Orta Asiyadan gedən yüklər üçün də yeni yollar olmalıdır. Xəzər üzərindən keçən yol vaxt baxımından çox cəlbedicidir. Eyni zamanda, biz müştərək tarif siyasətini həyata keçirməklə bu yolu iqtisadi cəhətdən daha cəlbedici etməliyik. Hesab edirəm ki, burada da danışıqlar müsbət istiqamətdə gedir. Yəni, təkcə Orta Asiya ölkələrinin yükgöndərmə potensialını və oraya Avropa istiqamətindən gedən yükləri nəzərə alsaq görərik ki, hətta biz bütün bu layihələri icra etsək və genişləndirsək, yenə də çatmayacaq. Ona görə Zəngəzur dəhlizinin iqtisadi səmərəsi heç kimdə şübhə doğurmamalıdır. Əlbəttə, bizim üçün bu layihə təkcə iqtisadi və nəqliyyat layihəsi deyil, bu, bizim üçün strateji bir layihədir. Tam əminik ki, bu layihənin reallaşması bizim təbii hüquqmuzdur. Ondan əlavə, bu layihənin reallaşması, eyni zamanda, 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatında da öz əksini tapıb. Düzdür, orada ”Zəngəzur dəhlizi” sözü yoxdur. Çünki ”Zəngəzur dəhlizi” terminini mən ondan sonra, necə deyərlər, geosiyasi leksikona daxil etdim. Ancaq orada açıq-aydın göstərilir ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat bağlantısı olmalıdır və Ermənistan bunu təmin etməlidir. İndi Ermənistan bundan boyun qaçırmaq istəyir. Faktiki olaraq, üzərinə götürdüyü öhdəlikləri iki ildən çoxdur ki, yerinə yetirmir. Ancaq bu, bizi dayandırmayacaq. Yəni, bizim üçün bu, strateji layihədir və təkcə bizim üçün yox, bir neçə qonşu ölkə üçün və böyük coğrafiya üçün”.





Dövlət başçısı qeyd edib ki, nəqliyyat sahəsində bu günə qədər görülən işlər çox güclü zəmin yaradıbdır: ”Artıq görülən və bundan sonra görüləcək işlər, əlbəttə ki, bizim mövqeyimizi daha da gücləndirəcək. Çünki adətən açıq dənizə çıxışı olmayan ölkələr tranzit imkanlardan istifadə edə bilmirlər. Azərbaycan nadir ölkələrdəndir ki, açıq dənizə çıxışı yoxdur, ancaq artıq beynəlxalq logistika və nəqliyyat mərkəzinə çevrilib. Bizim infrastrukturumuz - dəmir yolları, hava limanları, Ələt Beynəlxalq Dəniz Limanı və digər nəqliyyat infrastrukturu, Xəzərdə ən böyük donanma və eyni zamanda, bizim donanmamız Qara dənizdə də işləyir. Mənim göstərişimlə bizim Qara dənizdəki donanmamızda gəmilərin sayı artırılacaq. Yəni, çox böyük nəqliyyat bazarında Azərbaycan ciddi aktora çevrilib. Əlbəttə ki, Zəngəzur dəhlizinin reallaşması tarixi zərurətdir. Ona görə mən dedim ki, Ermənistan istəsə də, istəməsə də bu, reallaşacaq. Yəni, bunu Ermənistanda yenə növbəti təhdid kimi qəbul edirlər, halbuki belə fikrim yox idi. Sadəcə olaraq, bu, qaçılmazdır. Bu, gec-tez olacaq. Əlbəttə, biz istəyirik ki, tez olsun və daha tez olsun”.

Göründüyü kimi, Azərbaycanın iqtisadi inkişafı və strateji coğrafi mövqeyindən çox gözəl istifadə olunur və bu da ölkəmizin beynəlxalq nüfuzunun artmasına gətirib çıxarır. Azərbaycan həm zəngun təbii resurslar, həm təbii coğrafi mövqeyi, həm də düşünülmüş iqtisadi inkişaf strategiyası ilə dünyada öz layiqli yerini tutub. Qlobal proseslər və ölkədə həyata keçirilən iqtisadi siyasət Azərbaycanın gəlirlərinin artmasına və beynəlxalq iqtisadi-ticari qovşağa çevrilməsinə imkan yaradıb.

Asiya və Avropa arasında nəqliyyat və ticarət qovşağı olan, Böyük İpək Yolunun düz mərkəzində yerləşən, öz enerji resursları ilə dünya iqtisadi məkanında iştirak edən, davamlı olaraq ümumdaxili məhsulun artımına reallaşdıran Azərbaycanın yaxın gələcəkdə dünyanın inkişaf etmiş ölkələrindən birinə çevriləcəyi şübhə doğurmur.

***Elçin***

SƏS

13 yanvar 2023-cü il



## "Mançester Yunayted"dən yeni transfer

"Mançester Yunayted" heyətinə yeni futbolçu qatıb. Qol.az xəbər verir ki, klub "Bernli"dən Vaut Veqorstu icarəyə götürüb. Niderlandlı forvardla mövsümün sonuna kimi müqavilə imzalanıb.

31 yaşlı oyunçu mövsümün əvvəlindən icarə əsasında "Beşiktaş"da çıxış edirdi. İstanbul təmsilçisinin futbolçu ilə müqaviləsi isə mövsümün sonunadək idi. Lakin "Beşiktaş" "Yunayted"ə görə hücumçu ilə sözləşməni ləğv edib. Bu səbəbdən MU Türkiyə klubuna 3 milyon avro təzminat ödəyəcək.

## Virusdan qorunmaq üçün necə qidalanmaq lazımdır?

"Qış aylarında qrip xəstəlikləri sürətlə yayılır. Bu da havanın temperaturunun aşağı düşməsi və düzgün qidalanmamaqdan qaynaqlanır. Qrip virus xəstəliyi olduğu üçün daha tez yayılır və vaxtında müalicə olunmadıqda ağır nəticələri də ola bilər". Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma üzrə mütəxəssis Məhsəti Hüseynova bildirib.

Onun sözlərinə görə, ilk növbədə virusa yoluxmamaq üçün orqanizmin immun sistemini gücləndirməliyik və bunun üçün də düzgün həyat tərzi yaşamağa, sağlam qidalanmağa fikir verməliyik: "Belə olan halda virusa yoluxma halı da daha az olur və yoluxduqda belə bu prosesi daha rahat şəkildə keçirməyə dəstək olur. Bəzən insanlar kor-koranə şəkildə müəyyən dərmanlardan istifadə edir və hər hansı preparata allergiyası olub-olmadığını bilmədən dərman qəbul edirlər. Bu isə gələcəkdə sağlamlıqda digər problemlərə yol açır. Lakin orqanizm təbii olaraq qidaları qəbul etməyə və onların təkibindəki mineralları daha asan mənimsəyə yönəlib. Buna görə də yaxşı olar ki, əgər ağır və ya qorxulu bir hal yoxdursa, evdə müəyyən vasitələrlə virusdan qurtulmaq mümkündür.



Virusa yoluxduğumuz zaman isti bitki çaylarına üstünlük verməliyik. Bunların içərisində normal bildiymiz çayların içərisinə müəyyən bitkilər əlavə etməklə də istifadə etmək olar. Eyni zamanda, yağlı və qarışıq olmayan şorbalardan da istifadə etmək lazımdır. Virus immun sistemimizi aşağı saldığı üçün mövsümi meyvə-tərəvəz qəbuluna üstünlük verməliyik. Xüsusilə də, "C" vitamini ilə zəngin meyvələrdən qəbul etmək lazımdır. İmmun sistemimiz bağırsaqlardan asılı olduğu üçün ev üsulu qatığı gündəlik qida rasionumuza əlavə etməliyik.

Bir çox mineral maddələr var ki, bunlara sink, selen daxildir. Orqanizm bu maddələrdən əskikdirsə, bu zaman da çox tez xəstəliyə yoluxma halları baş verir. Orqanizmimizi bu minerallarla təmin etmək üçün mütləq şəkildə dəniz məhsulları və əti daim qəbul etməliyik. Balqabaq tumu da olduqca faydalıdır. Eyni zamanda, çiy fındıq, qoz, badamdan da istifadə etmək lazımdır. Lakin çiy, qovrulmamış və duzlanmamış şəkildə yeyilməlidir".

***Səbinə Hüseynli***



# Ölkəmizin inkişafında gənclərin rolu nədən ibarətdir?

**Bu gün Azərbaycan gənci müxtəlif sahələrdə qazandığı uğurları ilə dövlətimizin və xalqımızın əsl qürur və iftixarına çevrilib. Gənclərimizin siyasi, ictimai, mədəni və idman sahələrindəki nailiyyətlərimiz bunları deməyə əsas verir. Azərbaycanda gənclər siyasətinin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ölkədə demokratik prosesin sürətlənməsi ərəfəsində gənclərin təşkilatlanması məqsədi ilə ulu öndər tərəfindən 1994-cü il 26 iyul tarixli fərmanı ilə Gənclər və İdman Nazirliyinin yaradılması ilə dövlətin gənclərlə bağlı siyasəti vahid mərkəzdən idarə olunmağa başladı. Ölkəmizdə gənclər siyasətinin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirlər ardıcıl xarakter alıb.**

Ölkəmizin inkişafında gənclərin rolu nə dərəcədədir?

SİA mövzu ilə bağlı araşdırma aparıb. Gənclər təşkilatlarının təşəbbüslərinin, onların cəmiyyətin inkişafına yönəlmiş layihələrinin, həmçinin beynəlxalq əməkdaşlığının dövlət tərəfindən dəstəklənməsi gəncliyin dünya birliyinə inteqrasiyasında mühüm əhəmiyyət kəsb edir. Bu gün gənclər təşkilatlarının fəaliyyəti ən ali səviyyədə qiymətləndirilir.

Azərbaycan gəncliyinin ölkəmizin bu günü və sabahı olduğunu nəzərə alaraq dövlətimiz tərəfindən müasir gənclərin maraqlarını təmin edən, beynəlxalq təcrübəyə əsaslanan dövlət gənclər siyasəti formalaşdırılıb və uğurla həyata keçirilməsi məqsədilə ölkəmizdə gənclər siyasəti sahəsində bir sıra aparıcı qurumlar fəaliyyət göstərir. Onlardan biri də Azərbaycan Respublikasının Gənclər fondudur.



Qeyd etmək lazımdır ki, artıq bir neçə il idi ki, Gənclər və İdman Nazirliyi tərəfindən gənclər təşkilatlarının müxtəlif sahələri əhatə edən layihələrinə maliyyə dəstəyi göstərilir və həmin layihələrin icrasına yardım edilir.

Ekspertlərin fikrincə, Gənclər Fondunun yaradılması gənclər təşkilatlarının fəaliyyətinə və onların layihələrinə maliyyə dəstəyinin göstərilməsi işini daha da təkminləşəcək. Fondun yaradılmasında əsas ideya ölkədə fəaliyyət göstərən gənclər təşkilatlarının milli və beynəlxalq miqyaslı strateji layihələrin keçirilməsinə dəstək verməkdir.

İlk dəfə Gənclər Fondu 1999-cu ildə İngiltərədə gənclərin fəaliyyətini stimullaşdırmaq məqsədi ilə yaradılmışdır. Bu gün Gənclər Fondu dünyada bir model kimi artıq İngiltərə ilə yanaşı dünyanın bir çox ölkələrində: Amerika Birləşmiş Ştatları, Almaniya, Rusiya, Hindistan, Kanada, Balkan yarımadası ölkələrində həyata keçirilən bir gənclik konsepsiyasıdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun Strateji planlaşdırma və beynəlxalq əlaqələr sektorunun müdiri Vüsalə Niftəliyeva:"Azərbaycan gəncləri həyatlarının bütün inkişaf mərhələsində və fəaliyyət istiqamətində Fonda müraciət edərək yararlana biləcəyinin fərqindədir. Fond müasir Azərbaycan gəncinin yaxın "dostudur" ifadəsini işlətsək yanılmarıq.



Odur ki, həyata keçirilən uğurlu gənclər siyasəti sahəsində Azərbaycan gəncliyi ictimai həyatın bütün bölmələrində aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humantiar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayırlar. Gənclər həyatlarının bütün inkişaf mərhələsində və fəaliyyət istiqamətində Fonda müraciət edərək yararlana bilərlər. Yeni fikir və ideyası olan gənclər, təhsil sahəsində dəstəyə ehtiyac duyan, beynəlxalq təcrübə qazanmaq istəyən, sosial-ictimai aktivlik nümayiş etdirmək istəyən, təcrübə qazanaraq karyerada ilk addımlar atmağı planlayan və s istiqamətlər üzrə müraciət edərək dəstək qazana bilərlər. Azərbaycan Respublikasının vətəndaşı olan 16-29 yaş arası hər bir şəxs Fonda müraciət edə və Fondun onlar üçün mövcud olan imkanlarından faydalana bilərlər.

Fondun həyata keçirdiyi bir çox layihə və müsabiqələr var. Bunlardan fərdi layihələrin maliyyələşdirilməsini, beynəlxalq tədbirlərdə iştirak qrantını, beynəlxalq təcrübə proqramlarını, xaricdə təhsil proqramı, təhsil haqqı xərcinin qarşılanması, İdeyanı Planlaşdır, gənclər təşkilatlarının layihələrinin maliyyələşməsi üzrə qrant müsabiqələri, könüllülük proqramları və s. qeyd etmək olar. Fond tərəfindən həyata keçirilən hər bir fəaliyyətin əsas məqsədi müasir Azərbaycan gəncinin inkişafını təmin etməkdən ibarətdir".

***Havar Şəfiyeva***

## BAŞSAĞLIĞI

Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradova qardaşı

**Yusif Muradovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

***Baş redaktor:***

**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**